**EVDƏ QAL, SAĞLAM QAL!**

**Azərbaycanın xarici siyasəti milli maraqlara və hücum diplomatiyasına əsaslanmalıdır**



Bax 8

**Almaniyalı deputat Qarabağ münaqişəsinin Madrid prinsipləri çərçivəsində mərhələli həllinə çağırıb**




Bax 5



**“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir**


# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 121 (6085) 18 iyul 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Vətəndaşlar Prezidentə yazırlar: Xalqımız hər zaman Sizin arxanızdadır, biz birlikdə güclüyük!



Bax 2

## Prezident şəhid generalın və şəhid polkovnikin ailəsinə ev verib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan hərbi qulluqçuların ailələrinin hərtərəfli diqqətlə əhatə olunması və onlara yüksək qayğı göstərilməsi...*

Bax 3

## Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin videokonfrans formatında ümumrespublika müşavirəsi keçirilib



*İyulun 17-də Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin videokonfrans formatında ümumrespublika müşavirəsi keçirilib. Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmə...*

Bax 5

## Prezidentin köməkçisi Ermənistanın təcavüzkar siyasətini ifşa edib



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Aljazeera International” kanalında “İnside Story” verilişində Ermənistanın baş naziri Nikol Paşinyanın sabiq diplomatik müşaviri Arsen Xaratyan ilə debata çıxıb...

Bax 3

## Adil Əliyev: “Ermənistan törətdiyi təxribatlarla beynəlxalq hüququn bütün normalarını pozur”



*Hazırda bütün dünya COVID-19 pandemiyasının yayılmasına qarşı mübarizə aparır. Bu mübarizəyə ən çox töhfə verən dövlətlərdən biri də Azərbaycandır. Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizin atdığı addımları müsbət dəyərləndirir və xəstəliyə qarşı mübarizədə aparılan səyləri nümunə olaraq digər ölkələrə göstərir. Lakin belə bir çətin vəziyyətdə Ermənistan dövləti iyulun 12-dən etibarən ölkəmizin sərhədlərində təxribatlar...*

Bax 7

## Yeni plan, yoxsa növbəti avantüra: Ermənistan geosiyasi çıxılmazlıqda



*Erməni silahlı qüvvələrinin qəfil Azərbaycanın Tovuz rayonu istiqamətində hücuma keçməsi regionda geosiyasi-hərbi vəziyyəti kəskinləşdirib. Azərbaycan Ordusunun dərhal cavab verməsi...*

Bax 6

**XİN: Loran Volkenin bəyanatı Fransanın beynəlxalq öhdəliklərinə ziddir**



Bax 3

**Ermənistan KTMT-dən kömək istədiyini danır**



Bax 14

**“Real” 34-cü dəfə İspaniya çempionu oldu!**



Bax 16

# Vətəndaşlar Prezidentə yazırlar: Xalqımız hər zaman Sizin arxanızdadır, biz birlikdə güclüyük!

***Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezident saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



Lerik rayonunun Barzavu kəndindən Hakim Qənbərov yazır: "Hörmətli cənab Prezident, bu gün ölkəmizdə baş verənlər Lələtəpə, Bayraqtəpə, Günnüt zəfərləri ərəfəsində Azərbaycanda yaşanan döyüş əzminin, qələbə ruhunun davamıdır. Bu möhtəşəm hissləri Vətənə sevgi, Sizin qətiyyətli siyasətiniz, dövlət-vətəndaş birliyi yaradıb. Bu dönməz qətiyyətin sayəsində Sizin - Ali Baş Komandanımızın döyüş əmri ilə yaxın zamanlarda torpaqlarımızı işğaldan azad edəcəyimizə əminik. Bu hissləri bizə yaşatdığınıza görə leriklilər adından Sizə minnətdaram. Dövlətim və millətim üçün həmişə döyüşməyə və şəhid olmağa hazıram. Vətən sağ olsun!".

Saatlı rayonunun Mollavəzili kəndindən Mirzəka Ağayev və Rövşən Bədəlov yazırlar: "Hörmətli cənab Prezident, Sizin qətiyyətli çıxışlarınızda böyük qələbənin işartılarını görürük. Əminik ki, bu günlərdə yaşananlar Şuşada, Xankəndidə dalğalanacaq bayrağımızın şanlı yolunun başlanğıcı olacaq. İgid əsgərlərimiz, unudulmaz şəhidlərimiz artıq bu yola cığır salıblar. Kəndimizin bütün sakinləri qətiyyətli siyasətinizi dəstəkləyir, hər an Sizin yanınızda olduğunu bildirir, döyüş əmrinizi gözləyirlər".

Füzuli rayonundan Fuad Şükürov: "Cənab Ali Baş Komandan, Azərbaycan xalqı öz ordusuna inanır, ona güvənir. Ordumuz düşmənə hər an layiqli cavab verməyi bacarır. Xalq-iqtidar birliyi torpaqlarımızın tezliklə işğaldan azad olunacağına əminlik yaradır. Azərbaycan xalqı Sizin ətrafınızda sıx birləşib".

Bakı şəhərinin sakini Günay Yusifova: "Hörmətli cənab Prezident, iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutmaları hamımızı hiddətləndirdi. Bu hadisə Ermənistanın atəşkəsə əməl etmədiyini, onun təcavüzkar olduğunu bir daha göstərdi. Buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri düşmən hücumlarının qarşısını məharətlə aldı və düşməni geri oturtdu. Sizin də dediyiniz kimi, biz Azərbaycan torpaqlarında ikinci Ermənistan dövlətinin yaranmasına imkan verməyəcəyik. Torpaqlarımızın tezliklə azad ediləcəyinə inanırıq".

Bakı şəhərinin sakini Orxan Nuriyevin məktubunda deyilir: "Hörmətli cənab Prezident, əfsuslar olsun ki, torpaqlarımızın 20 faizi təcavüzkar Ermənistanın işğalı altındadır. Dağlıq Qarabağ bizim əzəli torpağımızdır. Əsrlərboyu doğmalarımız həmin ərazilərdə yaşayıb yaratmışlar. İşğal olunmuş ərazilərimizdə tarixi, dini abidələr dağıdılıb yerlə-yeksan edilib. Son günlərdə erməni işğalçıları tərəfindən atəşkəsin pozulması beynəlxalq hüquq normalarının yenidən pozulması deməkdir. Biz həmişə inanmışıq və indi də inanırıq ki, Sizin müdrik, uzaqgörən siyasətiniz və ordumuzun gücü sayəsində doğma Vətənimiz Azərbaycanın ərazi bütövlüyü çox qısa zamanda bərpa olunacaq. Biz Sizə güvənirik, Sizinlə fəxr edirik".

Masallı rayonunun sakini Spartak Nadirov: "Hörmətli cənab Prezident, bütün regiona təhlükə olan erməni vandalizminin qarşısını alan ordumuzun qəhrəmanlığını alqışlayıram. Şiddətli döyüşlərdə əsgərlərimizi dəstəkləyir, şərəfli Azərbaycan əsgərinin formasını geyinərək cəbhə bölgəsinə getmək, torpaqlarımızı erməni faşistlərindən azad etmək üçün əmrinizi gözləyirəm. Sizinlə qürur duyuram. Qarabağda bayrağımızı dalğalandıranlardan biri olmaq arzusu ilə döyüş əmrinizə hazıram".

Daşkəsən rayonundan Günel Məmmədova: "Hörmətli cənab Prezident və əziz Mehriban xanım, bu narahat günlərdə Sizin ordumuza, xalqımıza verdiyiniz dəstək əvəzedilməzdir. Əminəm ki, bu günlər arxada qalacaq, gələcəkdə bizi yalnız qələbə sevinci ilə dolu günlər gözləyəcək. Hamımız bilirik ki, Siz gecə-gündüz çalışır, bu məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gəlirsiniz. Xalqımız da hər zaman Sizin arxanızdadır. Biz birlikdə güclüyük!".

Ağdam rayon 135 saylı köçkün tam orta məktəbinin müəllimi Aynurə Səlimova: "Hörmətli Cənab Prezident, vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan ordumuz bu gün Sizin sayənizdə Cənubi Qafqazın ən güclü ordusudur. Həmişə olduğu kimi, yenə də işğalçı qonşumuz Tovuz rayonunda dinc əhalinin üzərinə mərmi yağdırdı. 2016-cı ilin aprel ayında olduğu kimi, güclü ordumuz yenə düşmənə layiqli cavab verir. Cənab Prezident, belə bir güclü ordumuz olduğu üçün Sizə minnətdarıq. İnşallah, Sizin rəhbərliyinizlə biz köçkünlər öz ata-baba yurdumuz olan Qarabağı azad edəcəyik. O torpaqda axan şəhid qanları yerdə qalmayacaq. Xalqın daim Sizin ətrafınızda bir yumruq kimi birləşməsi Sizə olan inamdandır. Güclü Ali Baş Komandan və güclü ordunun olması bütün gənclərin döyüş ruhunu yüksəldir. Biz Sizinlə qürur duyuruq".

Bakı şəhərinin Binəqədi rayonundan Səlcuq Müzəffərli: "Cənab Ali Baş Komandan, son günlərdə cəbhə xəttində yaşanan gərginlik fonunda hər bir Azərbaycan vətəndaşında yüksək vətənpərvərlik hissi müşahidə olundu. Biz ordumuzun gücünə inanırıq və ona da inanırıq ki, işğal altındakı bütün torpaqlarımız Sizin rəhbərliyinizlə düşmən tapdağından azad olunacaq. Bu gün Sizin əmrinizi gözləyən minlərlə gənc var ki, bunlardan Yeni Azərbaycan Partiyasının gəncləri də hər an cəbhə bölgəsində əlində silah, dilində "Yaşasın Azərbaycan" şüarı ilə vuruşmağa könüldən hazırdırlar. Biz Sizin gücünüzə inanırıq və bu çətin zamanda Sizin yanınızda yumruq kimi birləşmək hər bir Azərbaycan gəncinin ümdə borcudur".

Bakı şəhərinin sakini Rüfət Əhmədov: "Hörmətli cənab Prezident, son günlərdə cəbhə xəttində baş verən hadisələr bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənə daim layiqli cavab vermiş, onların həmlələrini uğurla dəf etməklə nəyə qadir olduğunu bütün dünyaya sübut etmişdir. Bu gün Azərbaycanın bütün uğurları Sizin adınızla bağlıdır. Cənab Prezident, biz Sizinlə birgə güclüyük. Yaşından asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı Sizin hücum çağırışınıza qoşulmağı özünə fəxr bilir".

Zəngilan rayon 35 saylı məktəbin müəllimi Həyat Abdullayeva: "Hörmətli cənab Prezident, Sizin həyata keçirdiyiniz siyasətin nəticəsidir ki, bu gün Azərbaycan güclü orduya malikdir. Ordu quruculuğu istiqamətində gördüyünüz işlərin nəticəsidir ki, Azərbaycan bu gün düşmənə layiqli cavab verə bilir. Həm Aprel döyüşlərində, həm də son günlərdə Tovuzda baş verən erməni təxribatına layiqli cavab verilmişdir. Qüdrətli ordumuz istənilən vaxt işğalda olan torpaqlarımızı azad etmək iqtidarındadır. Cənab Ali Baş Komandan, Zəngilan gəncləri olaraq bizlər daim dövlətimizə xidmət edirik. Sizə olan inamımız sonsuzdur. Biz Sizin ətrafınızda sıx birləşmişik və daim əmrinizə hazırıq".

Bakı şəhərinin sakini Elvin Hüseynov: "Hörmətli cənab Prezident, bu müraciəti Sizə ünvanlamağı özümə borc bildim. Son günlərdə mənfur düşmənlərimizin ölkəmizə qarşı təcavüzünü Azərbaycan gəncləri qəti şəkildə qınayır və Sizin əmrinizi gözləyirik ki, düşmənə şanlı Aprel döyüşlərində olduğu kimi, layiqli cavab verək. Bu gün biz gənclər tərəfindən döyüş həm ön cəbhədə, həm də arxa cəbhədə sosial şəbəkələrlə davam edir və düşmənə hər iki tərəfdə layiqli cavab verilir. Cənab Prezident, ön cəbhədə əlimizdə silah qanımızın son damlasına kimi Vətəni müdafiəyə hazırıq".

Bərdə rayonunun sakini Ramal Əhmədov: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bütün dünyada koronavirus pandemiyasının tüğyan etdiyi bir zamanda erməni faşistləri öz çirkin xislətinə sadiq qalaraq, Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir. Qüdrətli Azərbaycan Ordusunun cavabı nəticəsində düşmən böyük itki verərək geri çəkilməyə məcbur olmuş və həlak olan hərbçilərimizin qisası alınmışdır. Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının gənc üzvü olaraq Sizi əmin edirəm ki, bizlər daim dövlətimizə və dövlətçiliyimizə xidmət edirik. Sizin yanınızda yumruq kimi birləşmişik. Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün hər an ön cəbhəyə getməyə hazırıq. Azərbaycan vətəndaşı olmağımızla, Sizin kimi Prezidentimizlə qürur duyuruq".

Bakı şəhərinin daha bir sakini Yeganə Məmmədova yazır: "Möhtərəm cənab Prezident, bu gün Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir. Sizin məqsədyönlü siyasətinizin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncliyi xoşbəxtdir ki, Azərbaycanın lideri gənclərimizə daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib. Bu gücün mənbəyi Heydər Əliyev yoludur, bu gücün mənbəyi xalqla iqtidarın birliyidir, bu gücün mənbəyi Azərbaycan xalqının Sizə inamıdır. Azərbaycan gəncləri Sizin ətrafınızda sıx birləşib. Sizin ordumuzun inkişafına daim qayğı göstərməyiniz, onun daha da qüdrətli olması üçün bütün tədbirləri həyata keçirməyiniz sayəsində güclü ordumuz daha da təkmilləşir. Bu gün ordumuzun qarşısında çox mühüm vəzifələr durur. Əsas vəzifə torpaqlarımızın düşmən əsarətindən azad edilməsidir. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün hər cür imkan var".

Paytaxt sakini Ümudə Rəhimova: "Möhtərəm cənab Prezident, biz gənclər Sizi hər zaman dəstəkləyirik. Yeni Azərbaycan Partiyasının gənc üzvü olaraq Sizin tapşırıqlarınızı hər zaman uğurla yerinə yetirəcəyimə tam əmin ola bilərsiniz. Biz Sizin iradənizə güvənirik".

# Prezident şəhid generalın və şəhid polkovnikin ailəsinə ev verib

***A**zərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan hərbi qulluqçuların ailələrinin hərtərəfli diqqətlə əhatə olunması və onlara yüksək qayğı göstərilməsi istiqamətində konkret addımlar atılır. Nazirlikdən SİA-ya verilən məlumata görə, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə iyulun 16-da Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, eləcə də nazirliyin idarə rəisləri general-mayor Rasim Əliyev, general-mayor Rasim Babayev və digər zabitlər Qəbələ rayonunda şəhid general-mayor Polad Həşimovun və Bakı şəhərində şəhid polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət ediblər.*



Hər iki ailənin qayğıları ilə maraqlanan Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri bir daha Ali Baş Komandanın və Müdafiə nazirinin başsağlıqlarını şəhid ailələrinə çatdıraraq, Prezident İlham Əliyev tərəfindən onlar üçün ayrılan mənzillərin sertifikatlarını ailələrə təqdim ediblər. Söhbət zamanı şəhid general-mayor P. Həşimovun və polkovnik İ. Mirzəyevin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə başçısına və nazirliyin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Onu da qeyd edək ki, Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan bütün hərbi qulluqçuların ailələrinin qayğıları öyrənilir və onların həlli istiqamətində də addımlar atılacaqdır.

## Prezidentin köməkçisi Ermənistanın təcavüzkar siyasətini ifşa edib




**A**zərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Aljazeera International" kanalında "İnside Story" verilişində Ermənistanın baş naziri Nikol Paşinyanın sabiq diplomatik müşaviri Arsen Xaratyan ilə debata çıxıb. SİA xəbər verir ki, Hikmət Hacıyev Ermənistanın gücdən istifadə edərək Azərbaycan ərazilərini işğal etdiyini, işğal olunmuş ərazilərdə qanlı etnik təmizləmə törətdiyini qeyd edərək beynəlxalq hüquqa əsasən Ermənistanın hüquqi məsuliyyət daşıdığını bildirib.

Prezidentin köməkçisi danışıqlar prosesində münaqişənin mərhələli şəkildə həll edilməli və bu istiqamətdə ilkin addım kimi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı olduğunu bildirib, amma Ermənistan baş nazirinin ziddiyyətli bəyanatları ilə danışıqlar prosesini pozduğunu diqqətə çatdırıb. O, münaqişənin həllinin siyasi-hüquqi əsaslarının müəyyən olunduğunu və bunun beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və Helsinki Yekun Aktına əsaslandığını bildirib.

H.Hacıyev Ermənistanın atəşkəs rejiminin arxasında gizlənərək Azərbaycan ərazilərinin ilhaqını həyata keçirdiyini, işğal olunmuş torpaqlarımızda qanunsuz əməllər, o cümlədən qanunsuz məskunlaşma siyasəti apardığını vurğulayıb. Ermənistan baş nazirinin sabiq diplomatik müşavirinin Ermənistanda demokratiya qurulması barədə iddialarına cavab olaraq Prezidentin köməkçisi bildirib ki, demokratiya Ermənistanın danışmalı olduğu sonuncu məsələdir. O, əlavə edib ki, Ermənistanda inqilabi diktatura qurulur, jurnalistlər və müxalifətçilər həbs olunur. Qeyd edib ki, demokratik dövlət digər dövlətin ərazisini işğal etmir və qanlı etnik təmizləmə törətmir.

Qarşı tərəfin qardaş Türkiyəyə qarşı iddialarına cavab olaraq H.Hacıyev Ermənistan konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiaları irəli sürüldüyünü, Ermənistanda dövlət səviyyəsində şovinizm əsasında "böyük Ermənistan" təbliğatının aparıldığını və gənc nəslin bu ruhda böyüdüldüyünü vurğulayıb. H.Hacıyev Ermənistanın sərhədlərinin bağlı olmasının və Ermənistanın özünü təcrid vəziyyətində yaşamasının günahının bu ölkənin yürütdüyü irtiçaçı siyasət olduğunu bildirib. O, rasizm, şovinizm prinsipləri əsasında Ermənistanın yeni milli təhlükəsizlik strategiyasının hazırlandığını qeyd edib.

Türkiyə-Ermənistan sərhədinin bağlı olmasına gəldikdə isə Prezidentin köməkçisi Ermənistanın öz ərazisindən hücum edərək Kəlbəcəri işğal etdikdən sonra Türkiyənin BMT Nizamnaməsini əsas tutaraq təcavüzkar ölkə olan Ermənistanla sərhədlərini bağladığını qeyd edib. Veriliş əsnasında H.Hacıyev dövlət sərhədinin Tovuz istiqamətində baş verən hadisələr, Ermənistanın növbəti təxribatı və hərbi avantürası, mülki insanların Ermənistan tərəfindən qəsdən hədəfə alınması faktlarını diqqətə çatdırıb.

## XİN: Loran Vokenin bəyanatı Fransanın beynəlxalq öhdəliklərinə ziddir

**F**ansanın Overn-Ron-Alp (Auvergne Rhone Alpes) regionunun prezidenti Loran Vokenin (Laurent Wauquiez) Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini təhrif edən, o cümlədən iki ölkə sərhədində Ermənistan silahlı qüvvələri tərəfindən bu ilin 12 iyul tarixindən etibarən törədilən hərbi təxribat ilə bağlı tamamilə həqiqətə uyğun olmayan və qərəzli bəyanat ilə çıxış etməsini qətiyyətlə pisləyirik. SİA-nın məlumatına görə, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) bəyanatında deyilir. Qeyd edilir ki, qatı ermənipərəst mövqeyi ilə tanınan L.Vokenin rəhbərlik etdiyi və erməni icmasının çoxluq təşkil etdiyi Overn-Ron-Alp regionunun ölkəmizin işğal edilmiş Dağlıq Qarabağ bölgəsində yaradılmış qanunsuz rejimlə 10 əməkdaşlıq xartiyasını imzalaması region prezidentinin mövqeyinin qərəzli xarakter daşıdığını aşkar şəkildə göstərir.

Beynəlxalq hüququn normа və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycanın beynəlxalq tanınmış ərazilərini hərbi işğal altında saxlayan Ermənistanın təcavüzkar siyasətinə haqq qazandıran bu bəyanat, Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin ruhuna uyğun gəlmir, eləcə də ATƏT-in Minsk Qrupunun həmsədri kimi Fransanın mövqeyinə ciddi zərbə vurur. Fransanın ikinci böyük regionunun prezidentinin bu kimi birtərəfli və reallıqdan uzaq mövqeyi Azərbaycan ictimaiyyətinin Minsk Qrupunun həmsədri qismində Fransanın qərəzsiz mövqeyinə inamını sarsıdır. Bəyanat Fransanın beynəlxalq, Avropa, ikitərəfli və milli səviyyədəki öhdəliklərinə ziddir. Azərbaycan tərəfi Fransadan Minsk Qrupunun həmsədri olaraq münaqişənin həlli istiqamətində real addımlar atacağını, eləcə



də Fransanın seçkili orqanlarının bəzi nümayəndələrinin Azərbaycanın işğal edilmiş ərazilərində qondarma "qurum"u təşviq edən hər hansı fəaliyyətinin qarşısının alınması üçün bütün zəruri tədbirləri görəcəyini gözləyir.

## AŞPA-nın prezidenti Milli Məclis Sədrinin məktubuna cavab göndərib

Avropa Şurası Parlament Assambleyasının prezidenti Rik Daems Milli Məclisin Sədri Sahibə Qafarovanın Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribat törətməsi ilə bağlı müraciət məktubuna cavab göndərib. Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. AŞPA prezidenti bildirib ki, bu məsələ assambleyanın müvafiq komitələrinin diqqətinə çatdırılıb. O, komitələrin yaranmış vəziyyəti yaxından izlədiyinə inandığını bildirib.

Rik Daemsin Sahibə Qafarovaya ünvanladığı məktubda bildirilir ki, AŞPA tərəfləri gərginlik yaradan və münaqişəni dərinləşdirə biləcək hərəkətlərdən çəkinməyə çağırır. AŞPA prezidentinin məktubunda daha sonra qeyd edilir: "Tərəfləri ATƏT-in Minsk qrupunun həmsədrləri ilə əməkdaşlığa davam etməyə, münaqişənin sülh yolu ilə həllini tapmağa, mülki şəxslərin təhlükəsizliyini və müdafiəsini təmin etməyə çağırıram".

## Monteneqro parlamentinin deputatı: "Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır"

**M**onteneqro parlamentinin deputatı və AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Predraq Sekuliç Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə Azərbaycan Silah Qüvvələrinin mövqelərini atəşə tutmaları haqqında bəyanat verib.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində açılan artilleriya atəşindən dərin narahatlığımı ifadə edirəm. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında siyasi yolla həll olunmalıdır. Bu səbəbdən də hesab edirəm ki, münaqişə sülh yolu ilə, beynəlxalq hüququn qəbul olunmuş prinsip və normaları, habelə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələri əsasında həllini tapmalıdır. Təəssüf ki,



dünyanın, bəşəriyyətə təsirini gələcəkdə də göstərəcək olan müasir dövrün ən böyük problem ilə üzləşdiyi bir vaxtda da beynəlxalq hüquq tərəfindən tanınan ərazilərdə hələ də qarşıdurmalar baş verir".

P.Sekuliç 2010-2012-ci illərdə Monteneqronun turizm və davamlı inkişaf naziri olub. O, hakim Sosialistlərin Demokrat Partiyasının (DPS) üzvüdür. P.Sekuliç həmişə AŞPA-da Azərbaycan mənafelərini qoruyan fəaliyyət aparır.

# Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi!







### Prezident İlham Əliyev: "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim bu məsələ ilə bağlı fikrimiz qətidir"

"Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir. Ona görə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir addım geri atmayacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim bu məsələ ilə bağlı fikrimiz qətidir". Bu fikirləri iyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı çıxışı zamanı bildirib. Dövlət başçısı bildirib ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi.

Cənab Prezident nitqində vurğulayıb ki, Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz: "O vaxt bizim torpaqlarımızın itirilməsi bilavasitə Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar fəaliyyəti ilə bağlıdır. Ona görə Ermənistan hər zaman bu imkanlardan faydalanıb. İndi də özləri gizlətmirlər ki, o vaxt Azərbaycanda xaos, anarxiya idi, onlar bundan istifadə edib torpaqlarımızı zəbt etdilər. O vaxt Azərbaycan Xalq Cəbhəsi Gəncəni bombalayırdı, Azərbaycan əsgərlərini əsir götürmüşdü. Orada torpaq əldən gedirdi, burada isə onlar hakimiyyət uğrunda mübarizə aparırdılar və əfsuslar olsun ki, öz çirkin əməllərinə nail oldular. Hakimiyyətə gəldilər, daha çox torpaq verdilər, sonra da biabırcasına qaçıb gizləndilər, fərarilik etdilər. Bütün bunlar bizim tariximizdir".

Ötən əsrin 90-cı illərində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı işğalçılıq müharibəsinin başlanması nəticəsində Azərbaycanın 20 faiz torpaqlarını işğal etmişdir. Azərbaycan torpaqlarının 20 faizini işğal edən Ermənistan bilərəkdən və sistemli şəkildə beynəlxalq hüququn norma və prinsiplərini pozaraq, mülki insanları, xüsusilə, qadın və uşaqları hədəfə alıb. Hərbi təcavüz nəticəsində, insan hüquqları kobudcasına pozulub. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edir. Qaniçən ermənilər yaşlılara, qadınlara və uşaqlara zərrə qədər belə mərhəmət etmədən, əsl faşist simaların ortaya qoymuş oldular. Ölkəmiz münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında ərazi bütövlüyümüzün tam bərpası çərçivəsində ədalətli həllinə səy göstərsə də buna nail ola bilmədi. 26 il atəşkəs rejimində yaşasaq da, bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub.

İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayıb, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul edib. Bununla yanaşı, bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar.

### "Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi"

Ermənistanın işğalçılıq, anti-Azərbaycan siyasətini davam etdirməsinə baxmayaraq, onun yaşadığı qorxu hissi də danılmazdır. İndi bizim düşməni torpaqlarımızdan çıxarmağa qadir olan ordumuz var, beynəlxalq miqyasda Azərbaycanın haqq mövqeyi dəstəklənir və ən əsası da, insanlarda düşmənə qarşı mübarizəyə hazır olan yekdil əhval-ruhiyyənin olması, onu deməyə əsas verir ki, Qarabağ torpağı düşmən əsarətindən tezliklə azad ediləcək. "Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi" deyən Prezident İlham Əliyev bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacağının diqqətə çəkib: "Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl - 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı".

### "Ermənistan ancaq əliyalın insanlara qarşı vuruşub, qocalara, uşaqlara qarşı soyqırımı törədib"

Əlbəttə ki, məlum aprel döyüşləri - Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsi tarixi hadisəyə çevrildi. Bu, Azərbaycanın konstruktiv mövqeyi idi, haqq-ədalətin bərpası idi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən bir daha Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması çirkin siyasətin daha bir nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşışında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.

26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı. Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirildi, Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmən fəaliyyəti nəzarət altına götürüldü. Bu gün də ermənilərin əməlləri ikrah doğurur. "Ermənistan ancaq əliyalın insanlara qarşı vuruşub, qocalara, uşaqlara qarşı soyqırımı törədib" deyən dövlət başçısı bildirib ki, Xocalı soyqırımını törədənlər Ermənistanın siyasi rəhbərliyidir, keçmiş hakimiyyətidir, keçmiş iki prezidentidir hərbi cinayətkarlar: "Xocalı soyqırımı zamanı bu cəlladlar tərəfindən 106 qadın, 63 uşaq öldürüldü. Əziz Əzizov da həmin erməni faşistlərin əməlləri nəticəsində həlak olmuşdur. Bildirməliyəm ki, ağsaqqal Əziz Əzizovun da qanı yerdə qalmayıb, qarşı tərəfə adekvat cavab verilib və veriləcəkdir və heç kimdə bu haqda şübhə olmasın".

Əlbəttə ki, bu gün Azərbaycanın güclü ordusu var. Öz torpaqlarının işğaldan azad etməyə qadir olan ordu müasir texnikalara yiyələnib. Azərbaycanın tutduğu yol haqq yoludur və onu bu yoldan kimsə döndərə bilməz. "Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir" deyən Cənab Prezident qeyd edib ki, Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir: "Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır".

*Nəzakət ƏLƏDDİNQIZI*

# Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin videokonfrans formatında ümumrespublika müşavirəsi keçirilib

***İyulun 17-də Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin videokonfrans formatında ümumrespublika müşavirəsi keçirilib. Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət, genişmiqyaslı islahatlar nəticəsində ölkəmiz ötən dövr ərzində böyük nailiyyətlər qazanıb.***




Hazırda dünyanın koronavirus pandemiyasına qarşı mübarizəyə səfərbər olunduğunu deyən Əli Əhmədov qeyd edib ki, bu istiqamətdə Azərbaycan dövləti və hökuməti sistemli tədbirlər həyata keçirir və bu tədbirlər Prezident İlham Əliyevin birbaşa nəzarətindədir. Onun sözlərinə görə, pandemiya ilə mübarizədə Azərbaycan mühüm beynəlxalq təşəbbüslərlə çıxış edir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri qismində BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsü dünya dövlətləri tərəfindən dəstəklənib.

Əli Əhmədov qeyd edib ki, Azərbaycanın beynəlxalq müstəvidə mövqelərinin möhkəmlənməsi işğalçı Ermənistanı ciddi narahat edir. Bir neçə gün öncə Tovuz rayonu istiqamətində Ermənistanın hərbi təxribat törətməsinin səbəblərindən biri də budur. YAP Sədrinin müavini Azərbaycan Ordusunun düşmənə layiqli cavab verdiyini diqqətə çatdırıb.

Belə günlərdə Azərbaycan vətəndaşlarının Ali Baş Komandana və ordumuza güclü dəstək nümayiş etdirdiyini deyən Əli Əhmədovun sözlərinə görə, bu amil milli birliyimizin və həmrəyliyimizin parlaq ifadəsidir. Bununla belə, o, bəzi qrupların xalqın dövlətə və orduya dəstək aksiyalarından öz məqsədləri üçün sui-istifadə etməyə, təxribatlar törətməyə çalışdıqlarını söyləyib. YAP Sədrinin müavini Azərbaycan cəmiyyətinin bu cür təxribaçıların əməllərini qəti şəkildə pislədiyini vurğulayıb.

Müşavirədə partiyanın rayon və şəhər təşkilatlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

# "Bir santimetr torpağımız düşmən işğalında qalmayacaq"



Yeni nazir Ceyhun Bayramovun artıq vəzifəsinin icrasına başladığı saatlarda Xarici İşlər Nazirliyi bu gün cəbhədə baş vermiş son hadisələrlə bağlı bəyanat yayıb. SİA bəyanatın mətnini təqdim edir: 16 iyul 2020-ci il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində yenidən mövqelərimizə hücum cəhdi olub, Tovuz rayonunun Ağdam, Dondar Quşçu və Vahidli kəndlərində mülki yaşayış infrastrukturları iriçaplı silahlar və artilleriya qurğularından istifadə etməklə atəşə tutulub. Davam edən döyüşlər zamanı Azərbaycan Ordusunun bir hərbi qulluqçusu həlak olub. "Qanlı təxribatçı fəaliyyətini davam etdirən Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq, təcavüzkar siyasətinin nəticələrini möhkəmləndirmək və gücdən istifadə etməklə yeni təcavüz aktları həyata keçirmək niyyətini açıq şəkildə nümayiş etdirir.

Bir daha bəyan edirik ki, bölgədəki gərginliyin yeganə səbəbkarı Azərbaycanın Dağlıq Qarabağ və ətraf 7 rayonunu hərbi işğal altında saxlayan, yüz minlərlə azərbaycanlının fundamental hüquq və azadlıqlarını pozan, münaqişənin danışıqlar yolu ilə həllinə birbaşa əngəl törədən Ermənistandır. Öz iflasa uğrayan daxili siyasətini örtbasdır etmək üçün, təcavüzkar xarici siyasəti möhkəmləndirmək və Azərbaycan ərazilərinin işğalına görə daşıdığı məsuliyyətdən beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq cəhdi edən Ermənistan rəhbərliyi dərk etməlidir ki, Azərbaycan beynəlxalq tanınmış ərazilərinin işğalı faktı ilə heç zaman barışmayacaq və torpaqlarımızın bir santimetri belə düşmən işğalı altında qalmayacaq. Azərbaycan münaqişənin siyasi yolla həllinin tərəfdarı olduğunu hər zaman bəyan edib, lakin bu danışıqların sonsuz olaraq davam etməsi anlamına gəlməməlidir. Azərbaycan nəticəyə yönəlik danışıqları dəstəkləyir və ATƏT-in Minsk Qrupunun həmsədrlərindən də məhz bu istiqamətdə vasitəçilik səylərini gözləyir. Cəbhədə yaranmış gərginlik və onun doğura biləcəyi bütün nəticələrin məsuliyyəti tam olaraq Ermənistan rəhbərliyinin üzərindədir", - deyə, məlumatda qeyd olunub.

## "TRT HABER" Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki gərginliklə bağlı reportajlar yaymaqda davam edir




Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə hücuma keçməyə cəhd göstərməsi əsasında yaranan gərgin hərbi vəziyyət barədə Türkiyənin aparıcı "TRT HABER" televiziya kanalı xüsusi reportajlar yaymaqda davam edir.

AZƏRTAC xəbər verir ki, reportajlarda Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışı və düşmən hücumunun qarşısının alınmasına dair tapşırıqları, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın baş verənlərlə bağlı təcavüzkar Ermənistana xəbərdarlıq xarakterli çıxışı, işğalçı ordunun Tovuz istiqamətində Azərbaycanın yaşayış məskənlərini və dinc əhalini atəşə tutması, dağıntılar, ordumuzun düşmənə qətiyyətli cavabları, o cümlədən beynəlxalq təşkilat rəhbərlərinin narahatlığını ifadə edən mövqeləri, Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasəti və onun fəsadları barədə məlumatlar, həmçinin erməni mərmiləri ilə evləri dağıdılan sakinlərin ifadələri yer alır.

# Almaniyalı deputat Qarabağ münaqişəsinin Madrid prinsipləri çərçivəsində mərhələli həllinə çağırıb

"Almaniya ATƏT-in Minsk qrupunun üzvü olaraq dərhal atəşkəsə çağırmalıdır". AZƏRTAC xəbər verir ki, Almaniya Bundestaqının solçular partiyasından deputatı, ATƏT Parlament Assambleyasının üzvü, Almaniya-Cənubi Qafqaz parlament qrupu sədrinin müavini Xelin Evrim Zommer bu fikri bugünkü bəyanatında səsləndirib (bax:https://www.linksfraktion.de/presse/pressemitteilungen/detail/konflikt-zwischen-armenien-und-aserbaidschan-friedlich-loesen/).




Zommer deyib: "Ermənistan ilə Azərbaycan arasında münaqişənin genişlənməsi hər iki tərəfin beynəlxalq miqyasda tanınmış dövlət sərhədində və Dağlıq Qarabağdan uzaqda baş verib. Bu fakt onu göstərir ki, Cənubi Qafqazda müharibə "yanğını" təhlükəsi var. Həlli uzanan münaqişə yalnız beynəlxalq hüquq normaları çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq nizamlana bilər. İlk növbədə dərhal atəş dayandırılmalıdır".

Deputat daha sonra vurğulayıb ki, münaqişəni dinc yolla nizamlamaq üçün Ermənistan və Azərbaycan ATƏT-in Minsk qrupunun himayəsi altında keçirilən danışıqlarda razılaşdırılmış Madrid baza prinsiplərini tam həcmdə reallaşdırmalıdırlar. Bu prinsiplərə əsasən birinci mərhələdə erməni qoşunları Dağlıq Qarabağın ətrafında Azərbaycanın işğal edilmiş rayonlarından çıxarılmalı, bu proses əhalinin təhlükəsizliyinə zəmanətlərlə müşayiət olunmalıdır ki, 750 mindən çox məcburi köçkün öz əvvəlki yaşayış yerlərinə qayıda bilsin. Dağlıq Qarabağın qəti siyasi statusu yalnız bundan sonra hər iki icmanın iştirakı ilə səsvermə nəticəsində müəyyən edilməlidir.

Zommer bildirib ki, federal hökumət gələcəkdə üç həmsədrin - Rusiya, ABŞ və Fransanın vasitəçilik fəaliyyətini dəstəkləmək üçün ölkənin ATƏT-in Minsk qrupunda üzv olmasından daha fəal istifadə etməlidir. Eyni zamanda federal hökumət Cənubi Qafqaz ölkələrinin inkişafı məqsədilə əməkdaşlıq yolu ilə vəziyyətin sabitləşdirilməsi tədbirlərini genişləndirməli, sülhün bərqərar olması üçün Ermənistan və Azərbaycan bərabər tərəfdaşlara çevrilməlidir.

# Yeni plan, yoxsa növbəti avantüra: Ermənistan geosiyasi çıxılmazlıqda

*Erməni silahlı qüvvələrinin qəfil Azərbaycanın Tovuz rayonu istiqamətində hücuma keçməsi regionda geosiyasi-hərbi vəziyyəti kəskinləşdirib. Azərbaycan Ordusunun dərhal cavab verməsi və düşmənin geri oturdulması rəsmi İrəvanın iflasını yaxınlaşdırır. Dünya dövlətləri, beynəlxalq təşkilatlar, region ölkələri yaranmış vəziyyətə münasibət bildirirlər. Belə görünür ki, regionda müəyyən qüvvələr hansısa prosesə start veriblər. Onların məqsədi geosiyasi sabitliyi pozmaq və bulanıq suda balıq tutmaqdır. Lakin qətiyyətli və güclü Azərbaycan Ordusu çoxlarının məkrli planlarını alt-üst etməkdədir. Bundan düşmən daha da quduzlaşır və yeni həmlələr etməyə çalışır. Cavabını almaqla yeni-yeni itkilər verir. İndi Ermənistanın sərhədə yaxın məntəqələrindən sakinlər qaçırlar. Polis onları zorla geri qaytarmağa çalışır.*



## Riskli addımlar: ermənilər yeni fəlakətlərə sürükləyənlər

Ermənistanın Dağlıq Qarabağ ərazisindən yüzlərlə kilometr uzaqda olan Tovuz rayonu istiqamətindən ölkəmizə hücum cəhdləri açıq surətdə bu vassal və forpost ölkənin təcavüzkar niyyətlərindən əl çəkmək istəmədiyini bir daha göstərdi. Əlbəttə, özlüyündə rəsmi İrəvan bu addımı ata bilməzdi. Onun havadarları əvvəlki kimi öz məkrli, çirkin və alçaq siyasətlərini davam etdirirlər. Gedişat onu göstərir ki, münaqişəni Dağlıq Qarabağ miqyasından çıxarmağa çalışırlar. Məqsəd nədir?

Tamamilə aydındır ki, Azərbaycan siyasi-diplomatik, ideoloji və hərbi aspektlərdə Ermənistanı Dağlıq Qarabağ kontekstində əzib keçir. Son illər erməni ordusu, diplomatiyası, siyasi dairələri Azərbaycana daha böyük miqyasda uduzmaqdadırlar. Bu proses münaqişənin ədalətli həlli şansını xeyli artırıb və demək olar ki, ermənilər və onların havadarlarının siyasi-diplomatik çıxış yolları qalmayıb. Bu səbəbdən cəlladlar Azərbaycanın üstünlüyünü arxa plana atmağa ehtiyac duyurlar.

Digər tərəfdən, Prezident İlham Əliyev müstəqil xarici siyasət xəttini bütün sürəti və dönməzliyi ilə davam etdirir. Son olaraq ölkə rəhbəri Azərbaycan telekanallarına verdiyi müsahibədə konkret olaraq ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətsiz olduqlarını, ikili standarta uyduqlarını və real nəticə əldə edə bilmədiklərini açıq ifadə etdi. Uzun illərdir ki, həmsədrlər ancaq sözdə nələrsə deyir, gerçək heç bir addım atmırlar. Bu səbəbdən tam haqlı olaraq İlham Əliyev danışıqları imitasiya etmək zamanının bitdiyini və işğalçının Azərbaycan ərazilərindən çıxarılması vaxtının gəldiyini bəyan etdi.

Bundan başqa, son illər Türkiyənin Yaxın Şərqdə çox fəal siyasət yeritdiyini dost da görür, düşmən də. Suriya, Liviya, İraq və Aralıq dənizində Ankaranın nümayiş etdirdiyi güc dünyanı silkələyib. Aydın görünür ki, qlobal miqyasda yeni bir supergüc yetişir ki, uzaqlarda belə öz maraqlarını təmin etməyə qərarlıdır. Ayrıca, Ayasofya ilə bağlı Ankaranın qəbul etdiyi qərar onun tam müstəqil və böyük güc kimi hərəkət etdiyinin yeni təsdiqi oldu.

Digər məqam Azərbaycan Prezidentinin müxtəlif rəsmi görüşlərdə Ermənistanın siyasi rəhbərliyinin əsl simasını konkret faktlarla göstərməsi müəyyən dairələri, görünür, çox narahat edir. İlham Əliyev birbaşa ifadə edir ki, Ermənistan rəhbərliyi faşist siyasət yeridir və bunun cavabını mütləq alacaq. Terrorçular və faşistlərə Ermənistanda heykəllər qoyulması, onların qəhrəman kimi təbliğ edilməsi bunun əyani sübutudur. Bunlar onu nümayiş etdirir ki, Ermənistan prinsipcə demokratik ola bilməz, müstəqil deyil, dövlət kimi formalaşmayıb. Deməli, regionun bu risk mənbəyi qurudulmalıdır.

Nəhayət, Azərbaycanın dünya qaz bazarında mövqeyinin daha da möhkəmləndiyi müşahidə edilir. Bunun fonunda Rusiya qazına olan tələbat xeyli azalıb. Bunu rusiyalı ekspertlər və rəsmi dairələr etiraf edirlər. Bir neçə ölkə - İran, Əlcəzair və Azərbaycan Türkiyəyə qaz ixracatına görə artıq Rusiyanı qabaqlayırlar. Bundan başqa, ABŞ və Avropadan yayılan informasiyalarda Azərbaycanın daha geniş miqyasda Avropanın enerji təhlükəsizliyinin təmini prosesində iştirakına isti münasibət göstərildiyi ifadə edilməkdədir.

Bütün bunlar geosiyasi aspektdə iki mühüm məqamı ortaya qoyur. Birincisi, Azərbaycanın qlobal geosiyasi proseslərdə çəkisi artır, onun qiymətini bilirlər. Cənubi Qafqazda Azərbaycan lider dövlət kimi qəbul edilir və daha çox Bakı ilə əməkdaşlığa üstünlük verilir. Faktlar göstərir ki, Avropa ölkələri daha çox Azərbaycana sərmayə yatırırlar. Yəni Azərbaycan regionda ən etibarlı tərəfdaşdır.

Azərbaycanın bu proseslərin fonunda qələbə şansının daha da artdığı və ən əsası artıq dünya ictimaiyyətinin Bakının haqlı olduğuna tam əminliyi aydın görünür. Yəni proseslər bu məntiqlə davam etsə, Ermənistan və onun buradakı havadarları çox şeyi itirəcək, indiyə qədər etdikləri cinayətlərin cavabını verməli olacaqlar. Ən əsası isə işğal etdikləri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çəkilmədidirlər. Şübhə yoxdur ki, bu cür gedişatı pozmağa və ya istiqamətini dəyişməyə cəhd olacaqdı. Bunu rəsmi Bakı hamıdan yaxşı bilir və hamıdan da yaxşı gözlənilən situasiyaya hazırlaşıb.

## Azərbaycanın cavabı: beynəlxalq təşkilatlar və böyük dövlətlərin reaksiyası

Bəs niyə məhz Azərbaycanın qərb bölgəsi hədəfə alındı? Xəritəyə nəzər yetirdikdə bir neçə faktor aydın görünür. Ermənistan təxribatını Azərbaycanla Gürcüstanın sərhədləri yaxınlığında həyata keçirir. Həmin ərazi iki ölkə arasında əlaqələrin əsas nəqliyyat qovşağı üzərindədir. O cümlədən avtomobil və dəmir yolları, enerji marşrutları qərb bölgəsinin ərazisindən keçir. Orada bir güvənsizlik ortamı yarada bilsələr, həm Azərbaycanın Gürcüstanla əlaqələrinə ciddi zərbə vurulacaq, həm də enerji layihələrinin güvənliyi şübhə altına alınacaq. Bundan başqa, "Yeni İpək Yolu"nun əsas marşrutlarından biri üzərində qeyri-müəyyənlik və risk yaranacaq. Nəzərə alaq ki, Azərbaycan indi məhz həmin ərazidə "Yeni İpək Yolu" layihəsi çərçivəsində yeni yol salır və işlər intensiv davam edir.

Bundan başqa, erməni təxribatının müəllifləri güman edirlər ki, bu cür hiyləgər üsulla geosiyasi baxımdan daha üç məsələni aktuallaşdıra bilərlər. Onlardan biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini arxa plana atmaqdır. Yəni münaqişə daha geniş anlam daşıyır və o, kompleks həll edilməlidir. Bununla da hansısa yeni güzəştlər əldə etmək şansı qazandıqlarını düşünürlər. İkincisi, regionda getdikcə daha da güclənən Türkiyə-Azərbaycan-Gürcüstan təhlükəsizlik modelinin dayanıqsız olduğunu sübut etməyə cəhd göstərirlər. Üçüncüsü, Azərbaycanın sürətli inkişafını ləngitməklə onu nələrəsə məcbur etməyi planlaşdırırlar.

Vurğulanan tezislər dünyanın müxtəlif ölkələrinin və beynəlxalq təşkilatların baş verənlərə münasibətindən də aydın duyulur. Həmin münasibətləri şərti olaraq bir neçə qrupa bölmək olar. Birincisi, beynəlxalq təşkilatlar - BMT və Avropa İttifaqının ifadə etdiyi münasibətləri, ikincisi - ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin münasibətlərini, üçüncüsü, obyektiv mövqe tutan ölkələrin münasibətlərini ehtiva edir.

Ayrı-ayrılıqda onlara nəzər salaq. BMT-nin Baş katibinin rəsmi nümayəndəsinin sözlərinə görə, "Baş katib hərbi əməliyyatların dərhal dayandırılmasına çağırır və iştirak edən tərəfləri vəziyyətin həlli istiqamətində addımlar atmağa, eləcə də təxribatçı ritorikadan çəkinməyə çağırır". Bundan başqa, Antonio Quterreş ifadə edib ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin "bu təhlükəli vəziyyətin həllində və uzun sürən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması üçün yolların axtarılmasında" göstərdiyi səyləri tam dəstəkləyir.

Aydındır ki, ümumi, yayğın, növbətçi cümlələrdən ibarət bir münasibətdir. Baş katib nədənsə rəhbərlik etdiyi təşkilatın Təhlükəsizlik Şurasının dörd qətnaməsinə Ermənistanın dərhal əməl etməsini tələb etməyib. Çünki məhz həmin qətnamələr yerinə yetirilmədiyindən bu gün Ermənistan yeni təxribatlara əl atır, işğalçı siyasətini davam etdirir. BMT-nin Baş katibi yaxşı bilməlidir ki, indi axan günahsız qanlarda beynəlxalq təşkilatların fəaliyyətsizliyinin də müəyyən rolu vardır. Çünki cəzasızlıq erməni təcavüzünə əlavə imkan yaradır.

Ancaq burada sətiraltı bir eyham da vardır. Baş katib deyir ki, Minsk qrupu münaqişənin "həlli yollarını axtarır" və o, bu prosesi "tam dəstəkləyir". Ancaq A.Quterreş necə sübut edə bilər ki, Minsk qrupunun həmsədrləri doğrudan da münaqişənin həlli yollarını axtarır? Hansı real nümunə mövcuddur? Deməli, havaya deyilmiş sözlərdir və əsas məqsəd rəsmi Bakını çəkindirməkdən ibarətdir. Yəni Azərbaycan torpaqların azad edilməsi tələbini qoymasın və həmsədrlər də daxil olmaqla, dünyanın bir sıra dairələrinin siyasi oyunları ilə başını qatsın!

Avropa İttifaqı da baş verənlərə münasibətini bildirən bəyanat yayıb. Orada deyilir ki, insident nəticəsində təəssüf ki, insanlar həyatlarını itiriblər. Təşkilat "hər iki tərəfi silahlı qarşıdurmanı dayandırmağa, gərginliyə səbəb olan hərəkət və ritorikadan çəkinməyə, gərginliyin daha da artmasının qarşısını almaq üçün təcili tədbirlər görməyə" çağırıb. Hətta bunun "yolu"nu da göstərib: "Bu kontekstdə hər iki tərəf birbaşa kommunikasiya üçün öz mexanizmlərindən, ATƏT-in Minsk qrupu həmsədrlərinin, habelə yaradılmış və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin rəhbərlik etdiyi formatdan istifadə etməlidir. Atəşkəsin ciddi şəkildə pozulmasının qarşısı alınmalıdır, şərtlər imkan verən kimi, ATƏT-in regionda monitorinqinin bərpa edilməsi vacibdir".

Sonda Aİ tərəfləri atəşkəs rejiminə ciddi şəkildə hörmətlə yanaşmağı, enerji və ehtiyatları koronavirus pandemiyası ilə mübarizəyə sərf etməyi önə çəkib. Ən başlıcası isə; Avropa İttifaqı ATƏT-in Minsk qrupu həmsədrlərinin himayəsi altında əsaslı danışıqlara yenidən başlamağa və xalqları sülhə hazırlamağa çağırıb.

Göründüyü kimi, öncə ümumi münasibət (təcavüzkarla təcavüz hədəfi arasında fərq qoymadan), sonra isə ATƏT-in Minsk qrupu! Sanki heç kimin günahkar olmadığı hansısa münaqişə var və onu avropalıların "ağsaqqallığı" ilə həll etmək gərəkdir. Halbuki Aİ bir neçə dəfə sənəd qəbul edib ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib və bu, region üçün ciddi geosiyasi təhlükə törədir. Hətta Avropa Parlamenti qəbul etdiyi son sənədlərdə regiona üçüncü qüvvələrin təsirinin mümkünlüyü və bunun da bölgənin təhlükəsizliyi üçün ciddi risklər yaratdığı qeyd olunub. Bəs indi hansı səbəbdən Aİ açıq demir ki, Ermənistanın havadarlarının növbəti təsiri nəticəsində erməni silahlı dəstələri Cənubi Qafqazda geosiyasi mənzərəni riskə atmaqdadır və rəsmi İrəvan dərhal bu hərəkətinə son qoymalıdır?

Gələk Minsk qrupu həmsədrlərinin bəyanatına. Orada bildirilib ki, 12-13 iyul tarixlərində Ermənistan-Azərbaycan sərhədində atəşkəs rejiminin ciddi şəkildə pozulması nəticəsində itkilər olub. Sonra həmsədrlər yazırlar ki, həmsədrlər və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik itkilərin olmasına təəssüflənirlər. Və nəhayət, "dahiyanə" təklif: "...Minsk qrupu həmsədrləri atəşkəsin pozulmasını qınayır və gərginliyin daha da artmaması üçün tərəfləri aralarındakı birbaşa rabitə kanallarından istifadə etmək də daxil olmaqla, bütün zəruri addımları atmağa çağırır". Əlbəttə, tərəflər qısa zamanda substantiv danışıqlara başlamalıdılar və "ATƏT müşahidəçilərinin bölgəyə qayıtması vacibdir".

Yəqin ki, dəyərli oxucu üçün bu bəyanatın da ruhu aydındır. Təcavüzkar "yoxdur", "hər iki tərəf risk edir" və "çəkinin", ATƏT-i də yenidən "dəvət edin". Onillərdir ki, məhz bu cür ümumi fikir bildirməklə işğalçını qoruyublar, münaqişənin həllini çıxılmaza salıblar. İndi bunlar hansı "substantiv" danışığı apara bilərlər? Konkret olaraq, təcavüzkar Ermənistana qarşı real addımlar niyə atmırlar? Hadisəni kənardan passiv izləyib, sonra da "dalaşmayın" kimi bəsit üsullarla nəyə nail ola bilərlər? Heç bir şəyə. Necə ki, indiyə qədər də real nəticə yoxdur.

Ardı Səh. 7

# Yeni plan, yoxsa növbəti avantüra: Ermənistan geosiyasi çıxılmazlıqda

**Əvvəli-Səh-6**

Həmsədr dövlətlərin rəsmi münasibətləri də bundan ruhən fərqlənmir. Yenə təcavüzkarın adını çəkməmək fonunda "təmkinli olun" məsləhəti və mənasız cümlələr. ABŞ-ın bəyanatından başlayaq. Vaşinqton qarşıdurmaları qınayır və "tərəfləri güc tətbiqini dayandırmağa çağırır". Açıqlamada ifadə olunub: "ABŞ Azərbaycan-Ermənistan sərhədindəki zorakılığı qəti şəkildə pisləyir. Tərəfləri güc tətbiqini dərhal dayandırmağa, aralarındakı mövcud birbaşa əlaqə kanallarından istifadə etməyə və atəşkəsə ciddi əməl etməyə çağırırıq. Birləşmiş Ştatlar ATƏT-in Minsk qrupunun həmsədri kimi tərəflərə Dağlıq Qarabağ münaqişəsinin davamlı və dinc yolla həllinə kömək etməkdə tam sadiq olaraq qalır. Biz bu məqsədə nail olmaq uğrunda fəal iştirakımızı davam etdirəcəyik. ABŞ Minsk qrupu həmsədrlərinin tərəflərə mümkün qədər qısa müddətdə əsaslı danışıqlara başlamaqla bağlı çağırışlarına qoşulur və həmçinin vəziyyət imkan verdikcə ATƏT müşahidəçilərinin bölgəyə cəlb olunmasını vacib hesab edir".

Hamı zorakılığı pisləyir. Bu məqamda zorakılığı da Ermənistan edir. Bəs nə üçün Vaşinqton açıq demir ki, "təcavüzkar Ermənistanın zorakılığı nəticəsində vəziyyət gərginləşib"? digər tərəfdən, qəribədir, yenə birbaşa kontaktdan danışırlar. Rəsmi İrəvan qəfil hərbi əməliyyata başlayır və Azərbaycanın yeni ərazisini işğal etməyə çalışır, Amerika da deyir ki, "birbaşa kontakta girin"! Bu, gülünclük deyilmi? Həmsədr ölkə kimi ABŞ-a yaraşan mövqedirmi? Ümumi sözlərlə "müharibə etməyin" çağırışı ilə hansı savaşı dayandırıblar? Birbaşa və açıq surətdə erməni təcavüzünün olduğu deyilməli və ona qarşı real addımlar atılmalıdır.

ATƏT-in Minsk qrupunun digər həmsədri Rusiya da Amerikadan fərqli bir şey demədi. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bəyan edib: "Biz Ermənistan-Azərbaycan sərhədindəki atışmalardan dərin narahatıq. Hər iki tərəfi təmkinli olmağa və atəşkəs rejimi ilə bağlı üzərinə götürdükləri öhdəliyə riayət etməyə çağırırıq... Bildiyiniz kimi, Rusiya XİN başçısı Sergey Lavrovun Bakı və İrəvandan olan həmkarları ilə intensiv telefon danışığı olub. Hər iki tərəfi bir daha təmkinli olmağa çağırırıq".

Yeni Rusiya da işğalçını yerində oturtmadı. Kreml bir zəngi ilə erməni ordusunun səsini batıra bilərdi. Lakin heç zaman etməyib, indi də etmir. Əvəzində, ABŞ və Fransa kimi vasitəçiliyə hazır olduğunu deyir. Necə vasitəçilik edə bilərsən ki, bəri başdan təcavüz edəni işğala məruz qalandan fərqləndirmirsən? Ümumi "savaşmayın" deməklə əslində qeyri-müəyyənlik daha da geniş miqyas alır.

### Ədalətin zəfəri: o gün yaxınlaşır!

Rusiyalı bir sıra ekspertlər isə daha konkret və ədalətli mövqe tuturlar. Məsələn, Maksim Şevçenko və Pavel Felqenqauer fikirlərində reallığa yaxın mövqe tutublar. M.Şevçenko Ermənistanın Azərbaycana qarşı təcavüz etdiyini və bunu Rusiya Dövlət Dumasının hansı səbəbdən açıq demədiyindən təəccübünü ifadə edib. Münaqişəyə ədalətli yanaşma olmasa, onun həlli danışıqlar yolu ilə mümkün deyildir. Deməli, proseslər savaşa doğru gedir. Təxminən eyni mövqeni digər rusiyalı ekspert P.Felqenqauer də deyib. O, hətta Azərbaycan Ordusunun daha peşəkar və keyfiyyətli silahlara malik olduğunu söyləyib. Buna görə də ermənilərin çox itki verəcəyini proqnozlaşdırıb. Onun proqnozları öz təsdiqini tapır.

Bunların fonunda vəziyyətə daha obyektiv münasibət bildirən dövlətlər də vardır. Türkiyə, Ukrayna, İran və Pakistan bunlara misaldır. Türkiyə, ümumiyyətlə, qardaş yanğısı ilə həm dövlət, həm də cəmiyyət olaraq münasibət bildirib. Türkiyəlilər hətta döyüşə hazır olduqlarını da deyiblər. Onlar "bizim şəhidlər" deyirlər. Rəsmi Ankara da sərt şəkildə Ermənistanın ağlını başına toplamasını və bu hərəkətinin qarşılığının mütləq alacağını bəyan edib. Xarici İşlər naziri Mövlud Çavuşoğlu öz "Twitter" səhifəsində yazıb ki, "Can Azərbaycana canımız fədadır". Digər Türkiyə rəsmiləri də eyni ruhda münasibət bildiriblər.

Pakistanın da reaksiyası konkretdir: Ermənistan dərhal işğal etdiyi ərazilərdən çıxmalıdır. İran isə rəsmi olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib. Ukrayna daha geniş miqyasda münasibət bildirib. Ukrayna Xarici İşlər Nazirliyi yaydığı bəyanatda münaqişənin danışıqlar yolu ilə beynəlxalq hüquq çərçivəsində və BMT-nin qətnamələrinə uyğun həll edilməsi zərurətini vurğulayıb. Bəyanatda daha sonra yazılıb ki, "Ukrayna tərəfi vəziyyətin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət əsasında siyasi yolla həll olunmasının tərəfdarıdır".

Bütün bunlar nəyi ifadə edir? Hər şeydən öncə, aydındır ki, Cənubi Qafqazda geosiyasi sabitliyi pozmağa istiqamətlənmiş proses başlanıb. Bunu məhz hansı qüvvələrin etdiyini demək çətindir. Lakin belə hiss edilir ki, Yaxın Şərqdə ilərdir mövcud olan gərginliyi həm Afrika, həm də Qafqaz istiqamətində genişləndirmək planı mövcuddur.

Onu deyək ki, hələ 2015-ci ildə ABŞ-ın "Stratfor" özəl kəşfiyyat-analitik mərkəzinin 2015-2025-ci illər üçün geosiyasi proqnozlarında geosiyasi risklərin artacağı ayrıca qeyd olunub. Orada ABŞ-Rusiya-Çin geosiyasi üçbucağına daxil olan məkanda həssaslığın, turbulentliyin və qeyri-müəyyənliyin artması ehtimalından bəhs edilir. Ayrıca, pandemik vəziyyətin də meydana gələ biləcəyindən danışılır. Bizim bu informasiyalardan hansısa konkret nəticə çıxarmaq fikrimiz yoxdur. Lakin məntiqi olaraq bir sıra məqamları müqayisə etdikdə, indi baş verənlərin təsadüfi olmadığı və xüsusi məqsəd daşıdığı hiss edilir.

O başqa məsələdir ki, indi dünya üzrə vəziyyət elədir ki, istənilən sürpriz ola bilər. Cənubi Qafqazla da bağlı İran və Türkiyə faktorunu unutmaq olmaz. Digər tərəfdən, Rusiya-Türkiyə münasibətlərindəki müsbət dinamika yaddan çıxmamalıdır. Təbii ki, burada söhbət hansısa rus-türk ittifaqından getmir. Lakin artıq Cənubi Qafqazda Rusiya ilə yanaşı, Türkiyənin də iradəsindən kənar hansısa məsələnin həll olunması mümkün deyildir.

Bu baxımdan kimlərsə rəsmi İrəvanı sözün əsl mənasında "oda atıb". Ermənistan ordusu bu zərbələrdən sonra, ümumiyyətlə, özünə gələ bilməyəcək. Saxta təbliğata baxmayaraq, sadə ermənilər kimin hansı gücə sahib olduğunu bilirlər. Və aydın görürlər ki, Azərbaycan Ordusu bir neçə dəfə erməni ordusundan güclüdür.

Bunlarla yanaşı, baş verən hadisələr böyük dövlətlərin region ölkələrinə külli miqdarda silah satmaq fürsəti əldə etdiyini göstərir. Bu da mənfi haldır, çünki silahlanma hər zaman savaş ehtimalını artırır. Lakin məcburiyyət qarşısında qalanda, silah almaq zərurət olur.

Beləliklə, Ermənistanın növbəti hərbi avantürası bütövlükdə Cənubi Qafqazda geosiyasi qeyri-müəyyənliyi artırır. Bu prosesin sonu haqqında danışmaq tezdir. Lakin ondan Azərbaycanın zəfərlə çıxacağı şübhəsizdir. Çünki haqq müdrik rəhbərliyi və çox güclü ordusu olan Azərbaycanın tərəfindədir!

***Kamal Adıgözəlov***
***Newtimes.az***

# Adil Əliyev: "Ermənistan törətdiyi təxribatlarla beynəlxalq hüququn bütün normalarını pozur"

***Hazırda bütün dünya COVID-19 pandemiyasının yayılmasına qarşı mübarizə aparır. Bu mübarizəyə ən çox töhfə verən dövlətlərdən biri də Azərbaycandır. Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizin atdığı addımları müsbət dəyərləndirir və xəstəliyə qarşı mübarizədə aparılan səyləri nümunə olaraq digər ölkələrə göstərir. Lakin belə bir çətin vəziyyətdə Ermənistan dövləti iyulun 12-dən etibarən ölkəmizin sərhədlərində təxribatlar törətməyə başladı. Həmin gündən etibarən Ermənistan Tovuz rayonu istiqamətində həyata keçirməyə başladığı təxribatçı fəaliyyətini hazırda da davam edir.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri KİV-ə açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev deyib ki, Ermənistan tərəfinin budəfəki hücumu tarixin analogiyasına baxsaq 1992-ci ildə olan hücumla eyniyyət təşkil edir. Yenə ağır artilleriya silahlarından istifadə etməklə dinc əhalinin yaşadığı ərazilərə mütəmadi olaraq hücumlar təşkil edilir. Bu hücumlar nəticəsində bu günə qədər 11 hərbi qulluqçu şəhid olub, 1 mülki vətəndaş qətlə yetirilib. Qeyd olunan hücumlar pandemiyaya qarşı aparılan mübarizəni daha da çətinləşdirir.

Hazırda Ermənistan rəhbərliyinin diktəsi ilə Azərbaycan sərhədində həyata keçirilən təxribat zamanı həlak olan hərbiçilərlə yanaşı, mülki əhali də ağır artilleriya silahlarının hədəfindədir. Belə ki, Tovuz rayonunun Ağdam kəndinin sakini, 1944-cü il təvəllüdlü Əzizov Əziz İzzət oğlu evinə düşən ağır artilleriya mərmisinin partlaması nəticəsində həlak olub. Bununla da mərhum vətəndaşın İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 2-ci maddəsində nəzərdə tutulmuş yaşamaq hüququ Ermənistan dövləti tərəfindən pozulub. Qeyd edək ki, bu, Ermənistan tərəfindən ilk belə hal deyil. Belə ki, Ermənistan təkcə müharibə dövründə yox, eyni zamanda, atəşkəs dövründə də müxtəlif vaxtlarda Azərbaycan ərazisində olan ayrı-ayrı mülki şəxslərə qarşı silah işlətmiş, 2017-ci ildə Fizuli rayonu ərazisində yaşayan 2 yaşlı Zəhra Quliyeva nənəsi ilə birlikdə öldürülmüşdür.



Həmçinin Ermənistan tərəfinin hazırda ölkəmizin sərhədlərində törətdiyi təxribat nəticəsində mülki əhalinin yaşadığı evlər silahlı hücumlara məruz qalır. Bunun əsas məqsədi isə yerli əhalidə vahimə yaratmaq və onları yaşadıqları yerlərdən uzaqlaşdırmaqdır. Ermənistan tərəfindən mülki Azərbaycan əhalisinə qarşı silah işlədilməsi 1992-ci ildən başlamışdır. Həmin ildən etibarən Azərbaycana məxsus olan torpaqlar işğal edilmiş, nəticədə 1 milyondan çox məcburi köçkün öz ata-baba torpaqlarını tərk etməyə məcbur qalmışlar.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya əlavə edilmiş 4 saylı protokolun 2-ci bəndinə əsasən hər kəsin ölkə ərazisində sərbəst hərəkət etmək, özünə yaşayış yeri seçmək hüququ var. Lakin Ermənistan tərəfinin hazırda apardığı təxribat mülki əhalinin ərazini boşaltmasına istiqamətlənib. Bu səbəbdən də müxtəlif ağır artilleriya qurğuları vətəndaşların yaşadıqları evləri hədəf götürür, nəticədə ölən və yaralananlar olur.

Ermənistanın Azərbaycana olan hücumları ilə əlaqədar Birləşmiş Millət Təşkilatı tərəfindən 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edilib. Həmin qətnamələrdə Ermənistan tərəfinin Azərbaycana məxsus olan əraziləri işğal etməsi, Azərbaycan ərazisində qırğınlar törətməsi, nəticədə minlərlə insanın öldürülməsi, əsir götürülməsi və bir milyondan çox şəxsin qaçqın düşməsi təsdiq edilib. Ermənistan tərəfinin hazırda etdiyi bu hərəkətlər beynəlxalq hüququn həmılıqla qəbul edilmiş "ius cogens" normalarının ən kobud şəkildə pozulmasıdır.

Azərbaycan torpaqlarının işğal edilməsinə, ərazisində qırğınlar törədilməsinə baxmayaraq, beynəlxalq hüququn müddəalarını əsas götürür, güclü ordusunun olmasına baxmayaraq, ölkəmiz münaqişənin dinc yolla həll edilməsinin tərəfindədir. Lakin Ermənistan öz işğalçı siyasətindən bir addım da geri çəkilmir, əksinə, Ermənistan hakimiyyəti təxribatlar törətməkdə davam edir. Ermənistan tərəfinin həyata keçirdiyi təxribatçı hərəkətlərə dünyanın ədalətli qiymət verməsini tələb edirik.

# Azərbaycanın xarici siyasəti milli maraqlara



***Son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar, beynəlxalq münasibətlər sistemində davam edən gərginlik, o cümlədən dövlətlərin suverenliyi və daxili işlərinə müdaxilələr, beynəlxalq hüququn norma və prinsiplərinə ikili yanaşma, həmçinin beynəlxalq münaqişələr, birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran vəziyyəti daha da kəskinləşdirib. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib.***

Bu baxımdan, müasir dövrdə Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanıb. Ona görə də bu gün dünyanı narahat edən və həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar.

SİA Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədovun "Azərbaycanın xarici siyasəti milli maraqlara və hücum diplomatiyasına əsaslanmalıdır" sərlövhəli məqaləsini təqdim edir.

Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Azərbaycan Prezidentinin dinamik, çoxşaxəli və milli maraqlara əsaslanan xarici siyasəti

Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyev aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü zamanı çıxışında bildirib ki, koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq, eləcə də pandemiyanın bəşəriyyəti bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı var. Bununla yanaşı, Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün BMT-nin üzvü olan 130-a qədər dövlət tərəfindən dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə, eləcə də dövlətimizin başçısına olan böyük etimadın və hörmətin növbəti göstəricisidir.

Bu mühüm hadisə onu təsdiq edir ki, artıq ölkəmiz təkcə regional məsələlər deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələrlə bağlı da öz sözünü deyir, qlobal təhlükələr zamanı mövqeyini ortaya qoyur.

Qeyd etmək lazımdır ki, 2020-ci ilin yanvar ayında 14-cü dəfə Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edən Prezident İlham Əliyev moderatorun "Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz - Moskvaya, yoxsa Pekinə?" sualına cavab olaraq Prezident İlham Əliyevin "Bakıya" cavabı böyük önəm kəsb edir.

Dövlət başçısının bu cavabı Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların hər zaman uca tutulduğu siyasət yürütdüyünün bariz nümunəsidir. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın qonşu ölkələrlə münasibətləri dostluq, qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsiplərinə əsaslanır. Eyni zamanda, dövlət başçısı vurğuladı ki, Azərbaycan üçün onun milli maraqları həmişə birinci yerdədir və buna görə də müstəqillik illəri ərzində qazandığımız bütün nailiyyətlər xalqımızın müstəqilliyimizə sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatlar həyata keçirdiyimizə görə əldə olunub. Azərbaycanın əldə etdiyi nailiyyətlər Davos Dünya İqtisadi Forumunun illik hesabatlarında yüksək qiymətləndirilib.

Azərbaycanın beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə inkişaf etdirilir. Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə inamlı qələbə qazanıb. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu kimi qəbul edilməlidir. Belə ki, Azərbaycan son illər ərzində sabit inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki fəaliyyəti ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq, bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilib.

2003-cü ildən başlayaraq, xüsusilə son 3 ildə Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənib. 2018-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq prioritetləri" adlı mühüm sənəddə bir çox məsələlər öz əksini tapmaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur. Həmçinin 2018-ci il iyulun 11-12-də Brüsseldə keçirilmiş NATO Zirvə görüşünün Yekun Bəyannaməsində də Alyans üzvlərinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək və hörməti öz əksini tapıb. Onlar regiondakı mövcud münaqişələrin məhz bu prinsiplər əsasında həll olunmasının zəruriliyini bildiriblər. Eyni zamanda, 2018-ci il avqustun 12-də Xəzər dənizinin hüquqi statusuna dair aparılan uzunmüddətli danışıqların nəticəsi olaraq, Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması xarici siyasətimizlə bağlı vacib məsələlərdən biri kimi qiymətləndirilməlidir. Bu Konvensiya ölkəmizin maraqlarının təmin edilməsi

# və hücum diplomatiyasına əsaslanmalıdır

baxımından böyük diplomatik və siyasi uğurdur.

Bundan əlavə, Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və dövlətimizin başçısının bütün səyləri regionun inkişafına, sabitliyin qorunub saxlanılmasına yönəlmişdir. Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Gürcüstan-İran və digər əməkdaşlıq formatları buna əyani sübutdur. Keçən dövr ərzində müxtəlif regional əməkdaşlıq formatları çərçivəsində öz təşəbbüskarlığı ilə seçilən Azərbaycan Respublikası ilk dəfə olaraq dövlət başçıları səviyyəsində keçirilmiş Azərbaycan-Rusiya Regionlararası Forumuna, həmçinin Azərbaycan, Gürcüstan, İran və Türkiyənin Xarici İşlər nazirlərinin birinci dördtərəfli görüşünə də ev sahibliyi edib.

Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir. Bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasına səbəb olub. Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və əsas söz sahibi olan iştirakçılarıdır. Bu gün bölgənin uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsində aparıcı rol oynayan və iki ölkə arasındakı münasibətlərin çox vacib elementlərindən olan neft və qaz kəmərləri təkcə regionda deyil, eləcə də bütün dünyada dövlətlərimizin nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və digər layihələr Azərbaycanı qlobal iqtisadiyyatda özünəməxsus iqtisadi modelə malik ölkə kimi səciyyələndirir. Bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyi üçün böyük təminat verməklə yanaşı, iki qardaş dövlətin birliyi və strateji tərəfdaşlığı regional təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir. Eləcə də ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycanın enerji diplomatiyası regional təhlükəsizliyə, beynəlxalq əməkdaşlığa və milli maraqlara xidmət edir.

Azərbaycanın Qərb dövlətləri, xüsusilə Amerika Birləşmiş Ştatları ilə həm siyasi, iqtisadi, enerji sahələrində, həm də təhlükəsizlik sahəsində münasibətləri çox mühüm əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında iştirak edən və fəal investisiya yatıran yeganə ölkədir. Bu mühüm qlobal layihələr onu göstərir ki, artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz". Nəticədə, həyata keçirilən qlobal miqyaslı tədbirlər bu gün Azərbaycanın dünya miqyasında nüfuzunu xeyli artırıb, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib.

Həmçinin son 16 il ərzində "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Dünya İqtisadi Forumuna, Madrid Klubunun toplantısına, Birinci Cənubi Qafqaz Forumuna, Avronest Parlament Assambleyasının Avropadan kənarda keçirilən ilk iclasına, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyasına və digər nüfuzlu tədbirlərə ev sahibliyi edən Bakı artıq dünyanın qlobal səviyyəli tədbirlərinin keçirildiyi mərkəzlərdən biri kimi qəbul olunur. Dövlət və hökumət başçılarının, Nobel mükafatı laureatlarının, dünyada tanınmış ictimai-siyasi xadimlərin iştirakı ilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu artıq ənənə halını almaqla yanaşı, digər möhtəşəm beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan bir daha göstərdi ki, ölkəmiz Cənubi Qafqazda bütün sahələr üzrə müasir dövrün aktual məsələlərinin müzakirə olunduğu geosiyasi əhəmiyyətli məkandır.

Azərbaycan müsəlman aləmində də çox böyük hörmət, nüfuz qazanıb. İslam həmrəyliyi ilə bağlı atılan addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilib. Prezident İlham Əliyevin apardığı siyasət, həm ölkə daxilində, həm də xaricdə bu istiqamətdə Azərbaycanın həyata keçirdiyi tədbirlər İslam aləmində həmrəyliyi, əməkdaşlığı və birliyi daha da möhkəmləndirir. Bu baxımdan, 2018-ci ildə Naxçıvanın İslam Mədəniyyətinin paytaxtı seçilməsi heç də təsadüfi olmayıb.

Bununla yanaşı, 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirildi və ölkəmiz bu təşkilatda sədrliyə başladı. Məlum olduğu kimi, Azərbaycan Respublikası 2011-ci il mayın 26-da İndoneziyanın Bali adasında təşkilata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək Qoşulmama Hərəkatına tamhüquqlu üzv qəbul olunub. Azərbaycanın Hərəkata üzv olduğu 8 ildən artıq müddət ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə beynəlxalq ictimaiyyətin daha geniş dairələrində məlumatlandırılması artıb, təşkilatın sənədlərində münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə davamlı olaraq dəstək əks olunub. 2019-cu il oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının "Bandunq prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə görüşündə Ermənistan və onun havadarlarının bütün səylərinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük diplomatik uğura imza atıldı, 120 dövlətin təmsil olunduğu Zirvə görüşündə Ermənistanın işğalçı dövlət kimi ifşa edilməsinə nail olundu. BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi Azərbaycanın böyük diplomatik uğurudur.

Bundan əlavə, son iki ildə ölkəmizin ev sahibliyi etdiyi, eləcə də dövlət başçısının təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyətli tədbirlər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəldib.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xarici siyasət kursunun son 16 ildə Prezident İlham Əliyev tərəfindən dinamik şəkildə və novatorcasına inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin edib. Bununla yanaşı, son vaxtlar həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir.

### Ermənistanın təcavüzkarlığının davam etməsi və Azərbaycana qarşı ikili standartlar siyasəti

1993-cü ildə Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. BMT Təhlükəsizlik Şurasının sənədlərində işğalçı qüvvələrin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması qeyd olunsa da, Ermənistanın açıq-aşkar işğalçılıq mövqeyi tutması nəticəsində bu qətnamələr indiyədək yerinə yetirilməyib. Bununla yanaşı, faşist ideologiyasına əsaslanan təcavüzkar siyasət, eləcə də münaqişənin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmir. Məqsəd danışıqları imitasiya üçün aparmaq, yəni vaxt uzatmaqla işğalçılıq siyasətini davam etdirməkdir.

1992-ci il martın 24-də ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupun 1997-ci ildən həmsədrləri (ABŞ, Fransa və Rusiya) münaqişənin ədalətli həlli üçün təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmayıb. ATƏT-in Minsk qrupuna həmsədrlik edən böyük dövlətlər münaqişədə kimin haqlı olduğunu gözəl başa düşürlər. Bu baxımdan, ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilir. Lakin tərəfsiz vasitəçilik missiyasını üzərinə götürmüş həmsədrlər Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, Minsk qrupunun qəbul etdiyi sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Bundan əlavə, əgər münaqişə tərəfləri öz aralarında razılığa gələ bilirdilərsə, onda Minsk qrupunun yaradılması nə məqsəd daşıyırdı və bu qurumun keçən dövr ərzində apardığı çoxsaylı danışıqların mənası nə idi?

Eyni zamanda, təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də heçə endirib. Bu səbəbdən, beynəlxalq birlik təcavüzkarı öz adı ilə çağırmalı, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun hüdudlarından kənarda yerləşən ətraf 7 rayondan etnik təmizləməyə məruz qalmış və öz doğma yurdlarından məcburən köçkün düşmüş azərbaycanlıların hüquqlarının bərpa olunmasına çalışmalıdır. Ancaq Minsk qrupu yarandığı vaxtdan indiyədək qəbul etdiyi sənədlərdə bir dəfə də olsun Ermənistanın işğalçılıq siyasətindən nəinki danışılmır, əksinə, müxtəlif vaxtlarda digər beynəlxalq təşkilatların da işğal faktının əks olunduğu sənədlərin qəbul edilməsinə etiraz edərək məsələnin yalnız Minsk qrupu çərçivəsində həll edilməsinə üstünlük verib, daha doğrusu, Azərbaycanın işğal edilmiş əraziləri terminini qəbul etməyiblər. Bu cür mövqe Ermənistanı daha da şirnikləndirməklə yanaşı, açıq formada olmasa da, mövcud işğal rejiminin qorunub saxlanılmasına yönəlmiş dəstək kimi qəbul edilməlidir.

Belə ki, cəzasızlıq vəziyyətindən istifadə edən Ermənistan xarici işlər naziri Rusiya Federasiyasının Xarici İşlər nazirinin açıqlamasına cavab verərək Azərbaycan ərazilərinin işğaldan azad edilməyəcəyini bildirdi, indiyə qədər aparılmış danışıqlar prosesi və münaqişənin mərhələli həlli ilə bağlı təklifləri rədd və inkar etdi. Bu siyasətin davamı olaraq iyulun 10-da Yerevanda keçirilən Təhlükəsizlik Şurasının iclasında Ermənistanın milli təhlükəsizlik strategiyasının müzakirəsi zamanı bu ölkənin bölgədə sülh və təhlükəsizliyə birbaşa hədə törədən təcavüzkar siyasəti baş nazirin dilindən növbəti dəfə etiraf edildi.

İşğalçı Ermənistanda sosial-iqtisadi və demoqrafik böhran, son illərdə baş verən hadisələr, xüsusilə insanlara qarşı güc tətbiq edilməsi, qan tökülməsi, məhkəmə qərarı olmadan insanların həbs edilməsi, İctimai TV-nin zəbt edilməsi, sabitsizlik, xaos və s. məsələlərin üzərindən heç nə olmamış kimi keçilməsi acı təəssüf doğurur. Ermənistanda indiki hakimiyyətə alternativ olmaq istəyən siyasi təşkilatlar daim təzyiq altındadır, siyasi fəallar həbs olunur, hakimiyyətin mövqeyini tənqid edən media, QHT-lər qapadılır, fəal jurnalistlər, vətəndaş cəmiyyəti nümayəndələri həbs olunur. Ermənistan rəhbərliyi artıq ölkədə bütün sosial dayaqlarını itirib. İyulun 12-də Azərbaycan-Ermənistan sərhədində Ermənistan tərəfindən törədilən təcavüz aktı ictimai fikri ölkədaxili problemlərdən, eləcə də işğal altında saxladığı Dağlıq Qarabağ və ətraf 7 rayondan yayındırmaqla yanaşı, Ermənistanın açıq şəkildə işğalçılıq siyasətini davam etdirdiyini nümayiş etdirir.

Ermənistan danışıqlar adı ilə imitasiya ilə məşğuldur. Buna rəvac verən ATƏT-in Minsk qrupunun mücərrəd və ənənəvi bəyanatları elə status-kvonu qoruyub saxlamağa çalışan Ermənistanı hər dəfə bir az daha da şirnikləndirir. Azərbaycan-Ermənistan sərhədində baş verən təcavüz aktından sonra ayın 13-də ATƏT-in Minsk qrupunun verdiyi ənənəvi bəyanat bunun bariz nümunəsidir. Ona görə ATƏT Minsk qrupu təcavüzkarı öz adı ilə çağırmalı, onu sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr əsasında qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını birmənalı şəkildə tələb etməlidir. Əks təqdirdə, onların tərəfsiz vasitəçiliyi şübhə altındadır.

Münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüququn normaları və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır.

# Azərbaycanın xarici siyasəti milli maraqlara və hücum diplomatiyasına əsaslanmalıdır

Əvvəli-Səh-9

Lakin XX əsrin sonundan başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və açıq-aşkar işğalçılıq siyasəti beynəlxalq hüququn bütün norma və prinsiplərinə ziddir. Ermənistanın bu təcavüzkarlığı BMT Nizamnaməsində nəzərdə tutulan öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsi deyil, Nizamnamənin 2-ci maddəsinin 4-cü bəndinin kobud şəkildə pozulması, başqa dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı zor işlədilməsi deməkdir. Belə ki, dünyada sülhün və təhlükəsizliyin təminatçısı olan BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndində təşkilatın əsas vəzifəsi kimi "beynəlxalq sülhü qorumaq və bu məqsədlə təcavüz hərəkətlərinə və ya sülhün pozulmasına yönəlmiş digər pozuntulara qarşı təsirli kollektiv tədbirlər həyata keçirmək" nəzərdə tutulur. Bununla yanaşı, Ermənistan bütün beynəlxalq hüquqi sənədləri, xüsusilə BMT Nizamnaməsinin I və II maddələrində, 1970-ci il 24 oktyabr tarixli beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə, eləcə də 1975-ci il 1 avqust tarixli ATƏM/ATƏT-in Helsinki Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobudcasına pozub. Beynəlxalq hüququn normalarının ermənisayaq təfsiri dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmasının qeyri-mümkünlüyü haqqında 1990-cı il noyabrın 21-də qəbul edilmiş yeni Avropa üçün Paris Xartiyasına da tamamilə ziddir və qəbuledilməzdir.

Dövlət başçısı son vaxtlar dəfələrlə mühüm beynəlxalq platformada Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmi dövlət səviyyəsində dəstəklədiyini bütün dünyaya bəyan edib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səslləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmir. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və həmin il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışları zamanı tutarlı faktlarla sübut etdi. 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində, eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi. Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı bəyan edib ki, erməni xalqı öz müqəddəratını artıq təyin edib və onların erməni dövləti var: "Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!".

"Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən dövlət başçısı İlham Əliyev Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirib. Eyni zamanda, Prezident İlham Əliyev dünyaya bəyan edib ki, Azərbaycan bundan sonra da nə danışıqlar prosesində, nə də bölgədə gedən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcək, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək. İşğal edilmiş bütün torpaqlar işğalçılardan azad edilməlidir, Ermənistanın təcavüzünə məruz qalıb məcburən köçkün düşmüş azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar.

Dövlət başçısı son müsahibəsində bir daha vurğuladı ki, Azərbaycan dövləti ATƏT-in Minsk qrupundan təcavüzkarla təcavüzə məruz qalanın adını çəkməyi, o cümlədən daha ciddi, konkret və məqsədə ünvanlanmış bəyanatlar gözləyir. Prezident İlham Əliyev bildirib ki, bu gün faktiki olaraq danışıqlar prosesi getmir. Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin videokonfranslarının heç bir əhəmiyyəti yoxdur və bu, sadəcə olaraq, Minsk qrupunun sanki fəaliyyətdə olmasını göstərir. Prezident İlham Əliyev ATƏT-in Minsk qrupu həmsədrlərinə BMT Nizamnaməsini oxumağı xatırlatmaqla yanaşı, bildirib ki, Azərbaycan danışıqları imitasiya üçün aparası deyil: "...Danışıqları mahiyyət üzrə aparmaq istəyirik, indi onlar bir söz çıxarıblar - substantiv danışıqlar. Özləri bu sözü çıxarıblar, aydındır bunun mahiyyəti nədir - bəli, mahiyyət üzrə danışıqlar formatı dəyişmədən və masa üzərində olan danışıqlar predmetinə əlavə etmədən...Əks halda, mənasız danışıqların aparılmasına heç bir ehtiyac qalmayacaq. Bax, biz Minsk qrupundan bunu gözləyirik və öz mövqeyimizdə möhkəm dayanmışıq, haqq-ədalət bizim tərəfimizdədir. Biz haqlı olmağımızı həm beynəlxalq arenalarda göstərmişik, həm də döyüş meydanında və heç kimin Aprel döyüşləri yadından çıxmasın".

Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi, soyqırımı və işğalçılıq siyasəti 30 ildən artıqdır ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Ona görə də dünya birliyi Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, münaqişənin ədalətli həlli üçün BMT Nizamnaməsi, Helsinki Yekun Aktı, eləcə də BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələr əsasında təcavüzkarın açıq-aşkar anneksiya siyasətinə son qoyulması üçün təsirli tədbirlər görməli, eləcə də Ermənistan rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan hüquqazidd addımlarının qarşısını almalıdır. Eyni zamanda, münaqişənin sülh yolu ilə həlli üçün BMT Nizamnaməsi, Helsinki Yekun Aktı, eləcə də BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr əsasında təcavüzkar sülhə məcbur edilməli və açıq-aşkar anneksiya siyasəti yürütdüyünə görə Ermənistana təzyiqləri artırmalı, işğalçılıq siyasətinə son qoyulması üçün qəti praktik addımlar atmalı və təcavüzkarı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər. Əks təqdirdə, dövlətimizin BMT-nin Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququ vardır və bundan istifadə edəcək.

Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması, eləcə də Qarabağ haqqında həqiqətlərin daha dolğun, real faktlara və mənbələrə əsaslanaraq obyektiv şəkildə istər Azərbaycan, istərsə də dünya ictimaiyyətinə çatdırılması olduqca zəruridir. Bu baxımdan, ermənilərin Cənubi Qafqazda yeritdikləri təcavüz siyasətinin, erməni təbliğatının ifşası üçün əlaqələndirilmiş şəkildə fəaliyyət göstərmək lazımdır. Eyni zamanda, Prezident İlham Əliyevin Azərbaycan ziyalıları, diplomatları və ictimaiyyəti qarşısında qoyduğu və dəfələrlə vurğuladığı missiyanı - hücum diplomatiyasını yaddan çıxarmamalı, faşizmi qəhrəmanlaşdıran və terrorizmi dövlət səviyyəsində dəstəkləyən Ermənistanın təcavüzkar siyasətinin bütün dünyada ifşa olunmasına nail olmalıyıq. Məqsəd son iki əsrdə ermənilər tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bir daha belə halların təkrar olunmamasına çalışmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə, onun ağır nəticələrinin aradan qaldırılmasına, o cümlədən ərazi bütövlüyümüzün bərpa olunmasına nail olmaq və ölkəmizin milli maraqlarını qorumaqdır.

# Sədaqət Vəliyeva: "Bu gün ölkəmizdəki birlik və vəhdət düşmənləri çox narahat edir"

***"Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz istiqamətindəki sərhəd ərazilərinə xaincəsinə basqınından və ordumuzun düşmənə layiqli cavabından sonra Azərbaycanda əsl Ali Baş Komandan-xalq, ön və arxa cəbhə birliyi və vəhdəti yaşanır.***

Bu gün siyasi baxışlarından, yaşından, statusundan, məşğuliyyət növündən, cinsindən asılı olmayaraq, Azərbaycan vətəndaşları ağır pandemiyanın törətdiyi çətinlikləri və məhrumiyyətləri unudaraq, mənfur düşmənin növbəti dəfə Vətən torpaqlarına göz dikdiyi zaman bir nəfər kimi Ali Baş Komandana, Silahlı Qüvvələrimizə dəstəklərini ifadə edirlər. Bakı şəhərində keçirilmiş çoxminli yürüş və siyasi partiyaların birgə bəyanatı dediklərimizi bir daha sübut edir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.



Sədaqət Vəliyeva bildirib ki, Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq müxtəlif proqramı, platforması, fərqli məqsədi və məramı olan siyasi partiyalar iqtidar partiyası ilə olan fikir ayrılığını, məsələlərə müxtəlif yanaşma tərzini bir yana qoyaraq, həmrəylik nümayiş etdirib və Ali Baş Komandanın yanında olduqlarını bəyan ediblər: "Ölkəmizdə dünənin siyasi rəqibləri Vətən təhlükədə olduğu anda rəqabəti unudub, eyni səngərin əsgərləri kimi təhlükəni dəf etmək üçün bir yumruq kimi birləşmələri milli həmrəyliyin və vəhdətin göstəricisidir. Elə 43 partiya sədrinin imzaladığı Birgə Bəyanat da birmənalı şəkildə nümayiş etdirir ki, Azərbaycanda düşmənə qarşı vahid mövqe və fikir var. VİP, REAL, ADP, AXP və digər müxalifət partiyalarının sədrlərinin Vətənin düşmən təcavüzünə məruz qaldığı günlərdə Ali Baş Komandana və ordumuza dəstək olduqlarını birmənalı şəkildə bildiriblər. Təəssüf ki, bəzi siyasi çevrələr bu təlatümlü günlərdə hadisələrə münasibət bildirməyərək kənardan müşahidə etməyə üstünlük veriblər. Yəqin ki, onlar adətləri üzrə yenə də hansı isə neqativ məqamlar axtarmağa, özlərini fərqli göstərmək üçün tənqid etməyə, mənasız xırdalıqları qabartmağa üstünlük verirlər. Əlbəttə ki, böyük əksəriyyət siyasi partiyalar vəziyyəti düzgün dəyərləndirib, son hücumların məhz sərhəd zonasında baş verməsinin təsadüfi olmadığı, Ermənistanın və onun havadarlarının təcavüzkar niyyətinin yalnız Dağlıq Qarabağla məhdudlaşmadığını bildiriblər. Bir daha qeyd etməliyəm ki, Azərbaycan hazırda mövcud olan siyasi vahidlik ilk dəfə müşahidə olunan prosesdir və ölkəmizin perspektivi baxımdan olduqca əhəmiyyətlidir. Bu, eyni zamanda ölkədə başlanmış siyasi dialoq və siyasi partiyalarla iş prosesinin məntiqi nəticəsidir".

"Ordumuzun Tovuz istiqamətində düşmən hücumunun qarşısını alması, canlı qüvvələrini və texnikalarını məhv etməsi xalq tərəfindən coşqunluqla qarşılanmışdı və çoxsaylı insan Şəhidlər xiyabanına gəlmişdi" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, onların arasına Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib, bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışıblar.

Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, buna baxmayaraq, təxribatın qarşısı alındı və nümayiş etdirildi ki, heç bir daxili və xarici siyasi güc, Azərbaycan dövlətinin qətiyyətliyini, gücünü, Ali Baş Komandan-xalq həmrəyliyini şübhəyə ala bilməz: "Azərbaycan xalqı hər şeyi görür, qiymət verir. Azərbaycan dövləti də xalqı ilə birlikdədir, xalqını dinləyir, hər bir addımını onunla məsləhətləşir, gələcəyini onunla birlikdə planlaşdırır və həyata keçirir".



# "Azərbaycanın xarici siyasət kursunda nə dəyişəcək?"

***"Prezident İlham Əliyev xarici işlər naziri vəzifəsinə Ceyhun Bayramovu təyin edərkən onun qarşısında dayayan vəzifələri bir-bir sıraladı". Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib. Politoloqun sözlərinə görə, Prezidentin geniş nitqində önəmli məqamlar var idi:***

"Birincisi, prezident Xarici İşlər Nazirliyinin fəaliyyətindən narazı qaldığını ortaya qoydu. Dövlət başçısının öz sözləri ilə desək, nazirlikdə kadr siyasəti yanlışdır, kadrlar kimlərinsə qohumluluq əsasında qurulub. Prezident yeni nazir qarşısında ilk vəzifəni belə qoydu: "Nazirliyə təyinatlar peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsas olmalıdır".Dövlət başçısı nazirlikdə müxtəlif idarələr, o cümlədən rəhbər işçilər arasındakı koordinasiya işləri lazımi səviyyədə təmin edilməsi vacibliyini də bildirdi.

İkincisi, prezident yeni nazirin xarici nümayəndəliklərdə buna qədər görülən işlərin ciddi təhlil olunmasını tələb etdi. Prezident səfirliklərin işinin səmərəlilik əmsalından narazı olduğunu bu şəkildə izah etdi: "Bəzi hallarda bizim səfirliklərimizdə çalışan insanlar öz işinə laqeyd yanaşırlar, passiv olurlar, ölkəmizin maraqlarını lazımi səviyyədə müdafiə və təmin edə bilmirlər. Ölkəmiz haqqında reallıqları geniş ictimaiyyətə çatdıra bilmirlər, ya da ki, bunu etmək istəmirlər". Prezident səfirliklərin xaricdə yaşayan, fəaliyyət göstərən Azərbaycan icmaları ilə sıx əlaqələr qurmamasından da narazıdır.

Üçüncüsü, prezidentin sözlərindən o da aydın oldu ki, diplomatlar çalışdıqları ölkələrdə kütləvi informasiya vasitələri ilə sıx təmasda deyillər. Prezident vurğuladı ki, diplomatların bir qismi Azərbaycan haqqında qəsdən uydurulan, heç bir əsası olmayan şayiələri təkzib etmirlər. "Azərbaycana qarşı kampaniyaya adekvat cavab verilirmi? Verilmir" - deyən İlham Əliyev həmin diplomatların ünvanına belə bir sərt ifadə də işlətdi: "Bəzi hallarda fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycanın maraqlarını yox, özlərini həmin ölkələrin yüksək vəzifəli nümayəndələrinə yaxşı tərəfdən göstərmək üçün o ölkələrin maraqlarını müdafiə edirlər". Prezident bu qüsurların Xarici İşlər Nazirliyində aparılan yanlış kadr siyasəti ilə izah etdi. Prezident hətta bəzi diplomatların dövlətə xəyanət - satqınlıq etdiklərini, yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətində olduqlarını səsləndirdi.

Dördüncüsü, prezident Azərbaycanın xarici siyasətinin prrioritetlərini sıralayarkən qonşu ölkələrlə sıx əlaqələrə əvvəlkitək üstünlük verdiyini bildirdi. Dövlət başçısı bu zaman qonşu dövlətlərin adlarını xüsusi olaraq çəkməsə də, Azərbaycanın təşəbbüsü ilə qurulan üçtərəfli formatların ölkəmiz üçün önəmli olduğunu bir daha qeyd etdi. Prezident Azərbaycan üçün vacib olan təşkilatlardan İslam Konfransı Təşkilatının və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adlarını çəkdi. Prezident Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığa önəm verdiyini, bu qurumla saziş üzərində işlərin davam etdiyini, ancaq sazişin Azərbaycanın maraqlarına cavab verməsi üçün sənədi tələsik imzalamağın da əleyhinə olduğunu vurğuladı.

Beşincisi, prezident çıxışında ayrıca olaraq Azərbaycanın ABŞ və Böyük Britaniya əlaqələrinə toxundu. "Azərbaycanın Amerika Birləşmiş Ştatları ilə münasibətləri çox böyük əhəmiyyət daşıyır və bu münasibətlərin böyük tarixi var. Həm siyasi, iqtisadi, enerji sahələrində, həm də təhlükəsizlik sahəsində çox yaxşı nəticələr var" - deyən İlham Əliyev Ağ Ev sahibi Donalt Trampın il ərzində ona göndərdiyi məktublardan tutmuş iki ölkənin Əfqanıstanda əməkdaşlığına dair bəndləri sadaladı. Prezident çıxışının Amerika ilə bağlı hissəsinə bu cümlə ilə yekun vurdu:"Amerika ilə əlaqələrin gələcəyi çox müsbət olacaq". Prezident Böyük Britaniyanın və BP-nin Azərbaycan üçün strateji investor olduğunu xatırladaraq iki ölkənin qeyri-neft sektorunda daha böyük işlər görməli olduğunu da sözlərinə əlavə etdi.

Altıncısı, prezident yeni nazir qarşısında ən mühüm vəzifənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində olacağını vurğuladı. Prezident istefaya göndərilən nazirdən fərqli olaraq yeni nazirin mənasız danışıqlarda iştirakının əleyhinə olduğunu bildirdi.

Beləliklə, yeni xarici işlər naziri Ceyhun Bayramovu gərgin iş gözləyir. O bir neçə istiqamətdə fəaliyyət göstərməlidir. Yeni nazir ilk növbədə prezidentin də dediyi kimi nazirlikdə kadr islahatlarından başlamalıdır. Bu uzun prosesdir. Çünki, özünü doğrultmayan səfirlərin və nazirlikdə çalışanların dəyişdirilməsi vaxt aparacaq. Ancaq Ceyhun Bayramovun başqa alternativi yoxdur. O prezidentin tapşığırını yerinə yetirməlidir. Digər tərəfdən yeni nazir Xarici İşlər Nazirliyinin cəmiyyətdə itirilən nüfuzunu bərpa etməyə çalışmalıdır.

Ceyhun Bayramov Elmar Məmmədyarovdan fərqli olaraq həmsədrlər və erməni nazirlə mənasız danışıqlarda iştirak etməyəcək. Bunu nə prezident, nə də Azərbaycan cəmiyyəti istəyir. Danışıqlar predmetli olmalıdır. Ancaq erməni tərəfi predmetli danışıqlara hazır deyillər. Bu o deməkdir ki, danışıqlara bir müddət ara veriləcək. Ümumiyyətlə hərbi əməliyyatların davam etdiyi şəraitdə danışıqlara başlamaq Azərbaycanın maraqlarına cavab vermir.

Azərbaycanla Ermənistan arasındakı hazırki gərginlikdə Azərbaycana əsas dəstək verən dövlət Türkiyədir. Bunu prezident İlham Əliyev Türkiyə Cumhurbaşqanı Rəcəb Təyyub Ərdoğana iyulun 15-də göndərdiyi məktubda da yazıb. Türkiyə Cumhurbaşqanı, xarici işlər və müdafiə naziri, parlamentdəki partiyalar, ictimai fəallar Azərbaycana istənilən, o cümlədən hərbi dəstəyi verməyə hazır olduqlarını vurğulayıblar. Bu arada, Azərbaycanın müdafiə nazirinin müavini Ankaraya gedərək Türkiyənin müdafiə naziri Hulusi Akarla görüşməsi xüsusi əhəmiyyət kəsb edir. Bu o deməkdir ki, rəsmi Bakı balanslaşdırılmış xarici siyasəti davam etdirməklə yanaşı Türkiyə ilə siyasi və hərbi ittifaqı gücləndirməyə qərar verib. Bu doğru strategiyadır. Xarici işlər naziri Ceyhun Bayramov bu strategiyanın həyata keçirilməsində əsas firurlardan birinə çevriləcək".

***Ceyhun Rasimoğlu***



# Məşhur Məmmədov: "Erməni təxribatına cavab bir daha Azərbaycan Ordusunun gücünü göstərdi"

***"Artıq 26 ildir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında qəbul edilən atəşkəs rejimi tətbiq edilsə də qarşı tərəf buna əməl etmir və işğalçı rejim dəfələrlə atəşkəs rejimini pozmaqla təcavüzkar mövqeyini açıq-aşkar dünya ictimaiyyəti qarşısında sərgiləyir. Bu illər ərzində Ermənistan dəfələrlə atəşkəs rejiminə əməl etməyərək hərbi hissələri təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhəboyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq qoşunların təmas xəttində təxribatlar törədiblər. Ermənistanın beynəlxalq hüquq normalarını kobud və nümayişkaranə şəkildə pozması bu ölkənin daxili və xarici siyasətində baş verən böhrandan xəbər verir". Bu fikirləriSİA-ya açıqlamasında millət vəkili Məşhur Məmmədov deyib.***

M.Məmmədov erməni quduzlarının növbəti dəfə iyulun 12-də günorta saatlarından başlayaraq dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutduqlarını və bununla da bir daha aciz durma düşdüklərini bildirib. Millət vəkili qeyd edib ki, Ermənistan Tovuz rayonunu hücum obyekti seçməklə bir daha onu göstərir ki, Paşinyan riyakar və qorxaq olduğu üçün KTMT-nin çətiri altında gizlənməklə öz işğalçılıq "siyasətini həyata" keçirmək istəməsidir. Ancaq onun məkrli niyyəti baş tutmadı: "Qeyd edim ki, Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı bir sıra mühüm məsələlərə toxunaraq sərhəd bölgəsində Azərbaycan ordusunun qətiyyətli cavabından sonra işğalçı ölkənin düşdüyü vəziyyətlə bağlı bir çox mühüm məsələlərə toxundu. Dövlət başçımız Ermənistanın riyakarlığını, qorxaqlığını beynəlxalq hüquqa zidd olan davranışlarını, həmçinin işğalçı dövlətin baş nazir Paşinyanın faşizm, riyakar və qorxaq olduğunu bir daha ifşa etdi. Xüsusilə də, ötən günlər ərzində tam aydın oldu ki, Ermənistan Tovuz rayonu ilə sərhəddə məqsədyönlü şəkildə təxribat təşkil edib. Bu təxribatın da məqsədi Azərbaycanı guya Ermənistan ərazilərinə hücum edirmiş kimi göstərmək, beləliklə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına şikayət etmək, nəticə etibarilə bu təşkilata aid olan dövlətlərin hərbi gücünü Azərbaycana qarşı çevirmək idi. Yəni söhbət ilk növbədə Rusiya Silahlı Qüvvələrindən gedir. Amma bu küçə "demokratın" planlaşdırdığı provokasiya bütün istiqamətlər üzrə tam iflasa uğradı. Azərbaycan ordusu erməni ordusunun "burnunu" yaxşıca ovdu, ona yaxşı bir dərs verdi. Həmçinin, hamı gördü ki, hücum edən tərəf Ermənistandır. Bu səbəbdən də Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyanın KTMT-yə etdiyi müraciət də qəbul edilmədi, yəni, faktiki olaraq KTMT-nin Daimi Şurasının iclası baş tutmadı. Göründüy kimi, yenə də baş verən bu hadisələrin arxasında erməni hiyləsi, erməni təxribatı və Azərbaycana yönəlmiş çox mənəviyyatsız hərəkətlər dayandığı bir daha aydın göründü və artıq bütün dünya da bu məsələlərin əsl mahiyyətini bilir".

"Erməni tərəfinin bugünkü təxribatı və məğlubiyyəti bir daha Azərbaycan Ordusunun gücünü, Azərbaycan əsgərinin əzm və rəşadətini nümayiş etdirdi. Bu həmişə belə olub, bundan sonra da erməni quduzlarının burnunu əzməklə onlara yerini göstərəcək", - deyən M.Məmmədov Tovuz rayonu istiqamətində baş vermiş hadisə də ermənilərin məkrli siyasətini və Azərbaycanın beynəlxalq səviyyədə uğurlarından yanıb-alışan oğru satqın işğalçı ölkənini rəhbərləri, o cümlədən Paşinyan bu kimi təxribatçı əməlləri ilə xarici siyasətdə münaqişəyə digər dövlətləri cəlb etməklə məğlub ordusunun qoruya bilmədiyi ərazisində və işğal altında olan torpaqlarımızda "dayaq" yaratmağa çalışır: "Ermənistan tərəfinin verdiyi sərsəm və heç bir reallığı əks etdirməyən məlumatlar da beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışmaqdan başqa bir şey deyildir. Ancaq anlamır ki, istər Aprel döyüşlərində, istər Naxçıvan əməliyyatında və bugünkü Tovuz istiqamətində gedən döyüşlərdə olduğu kimi torpaqlarımızın azad edilməsi uğrunda gedəcək son döyüşdə də qələbə Azərbaycanın olacaq, yenə də məğlubiyyət onların".

M.Məmmədov 14 iyul mitinq yürüşü zamanı bəzi anti-milli ünsürləri törətdikləri təxribatla bğlı bildirib ki, bu düşmən dəyirmanına su tökən, öz xislətindən əl çəkməyərək ordumuzun və rəhbərimizin yanında olmaq əvəzinə təxribatçılıqla məşğul olan, ermənilərin əlinə oynayan, dövlət müstəqilliyimizin qəsdinə duran qüvvələrin tapşırığını canfəşanlıqla yerinə yetirən, vətəninə və xalqına xəyanət edənlərdir. Dövlət başçımız da müşavirə zamanı belə təxribat törədənlər haqqında ciddi tədbirlərin görülməsini deyib: "Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi. Ancaq əfsuslar olsun ki, bu insanlar Şəhidlər xiyabanına gələndən sonra oraya görünür bu məsələ ilə bağlı hər tərəfdən daha xəbər tutmuş bəzi təxribatçı qruplar da daxil olub. İndi onların şəxsiyyəti araşdırılır. Bu təxribatçı qruplar orada xuliqanlıq törətdilər, ictimai asayişi pozmağa cəhd etdilər və polisə müqavimət göstərdilər. Mən daxili işlər orqanlarına göstəriş vermişdim ki, insanların Şəhidlər xiyabanına gəlişini, onların təhlükəsizliyini təmin etsin, yol hərəkətini tənzimləsin. Çünki insanlar bir çox hallarda avtomobil yolu ilə gedirdilər. Bütün bu göstərişləri dünən axşam mən Daxili İşlər naziri Vilayət Eyvazova verdim. Eyni zamanda, dedim ki, siz ayıq olun, çünki istisna edilmir, hansısa təxribatçı qüvvələr və bizi istəməyənlər, "beşinci kolon"un nümayəndələri, satqınlar orada hansısa təxribat törədə bilərlər. Çünki belə kütləvi tədbirlərdə, o cümlədən əvvəlcədən təşkil olunmamış kütləvi tədbirlərdə bəzən xoşagəlməz hallar da baş verir. Ona görə Şəhidlər xiyabanına qədər bütün yol boyunca polis əməkdaşları öz vəzifə borclarını ləyaqətlə icra ediblər. Şəhidlər xiyabanında da insanlar yığışanda asayiş tam təmin edilirdi. Ancaq bir daha demək istəyirəm ki, bir qrup təxribatçı bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışdı. Təbii ki, daxili işlər orqanları tərəfindən onların bu əməllərinə qısa müddət ərzində son qoyuldu. Artıq onların şəxsiyyəti müəyyənləşdirilir. Onların hamısı məsuliyyətə cəlb ediləcək, bir nəfər də, - mən bu gün səhər dedim, - məsuliyyətdən boyun qaçıra bilməyəcək".

M.Məmmədov sonda onu da vurğulayıb ki, düşmən qoltuğuna sığınmaqla xalqa, dövlətə əsl xain olduqlarına və nə zamansa, bütün bunlara görə mütləq, amma mütləq cavab verməli olacaqlar - Azərbaycan xalqı və qanunları qarşısında!

***RƏFİQƏ KAMALQIZI***

# Azərbaycanda səfərbər olunmuş cəmiyyət var və xalq-hakimiyyət birliyi monolitdir



## Milli Məclisin deputatı, siyasi elmlər doktoru Elman Nəsirovun yap.org.az-a müsahibəsi

***- Elman müəllim, məlum olduğu kimi bir neçə gün əvvəl Ermənistan ölkəmizə qarşı növbəti hərbi təxribat törətdi. Sizcə, bu təxribatı törətməkdə işğalçı ölkənin məqsədi nə idi?***

- İşğalçı Ermənistan hakimiyyəti kritik vəziyyətdən çıxmaq, ondan narazı olan əhalinin fikrini yayındırmaq üçün təxribata əl atdı. Ermənistan tərəfinin koronavirus pandemiyasının yaratdığı çıxılmaz iqtisadi böhran vəziyyətində "kiçik müharibə"yə başlamaqla narazı kütlənin diqqətini ağır iqtisadi-sosial problemlərdən yayındırması istisna olunmur. "Böyük depressiya"nın təcrübəsi göstərir ki, ölkədə iqtisadiyyatın çökməsi millətçilik dalğasının yüksəlməsinə və "xarici düşmən" axtarışlarının intensivləşməsinə, əgər o varsa bu istiqamətdə avantürüst davranışlararın artmasına rəvac verir. Narazı kütlə belə xüsusi hallarda hərbi avantüralara loyal mövqedə dayana bilər. Nikol Paşinyanın yeni şəraitdə hakimiyyəti üçün olduqca ciddi daxili təhdidlərin formalaşacağı reallıqda məhz belə davranacağı istisna olunmur.

Nikol Paşinyan çox gözəl dərk edir ki, irimiqyaslı hərbi əməliyyatlar başlayacağı təqdirdə ölkəsinin güclü Azərbaycan Ordusu qarşısında biabırçı məğlubiyyəti və deməli, özünün də hakimiyyətdən salınması sırf zaman məsələsidir. Bu vəziyyətə Ermənistanın məqsədi "kiçik müharibə" effekti yaradıb, daxili auditoriyanın hakimiyyətə olan qəzəbini soyutmaq və sonra isə beynəlxalq aləmdə hay-həşir qoparıb, Azərbaycan ordusunun hücuma keçdiyi, Ermənistan dövləti və onun "məzlum" xalqı üçün yenidən təhdidlərin yarandığı ilə bağlı dezinformasiya yaymaqdan ibarətdir.

İyulun 12-də Ermənistan hərbi birləşmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində artilleriya qurğularından istifadə etməklə qəfil hücuma keçərək hərbi təxribat törədiblər. Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi hərbi avantüraya görə bütün məsuliyyət onun hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. İşğalçı dövlətin belə bir addım atması ilk növbədə, mövcud diktator rejiminin ölkə daxili problemlərlə üzləşməsi ilə izah olunur. Heç kəsə sirr deyildir ki, koronavirus pandemiyası Ermənistanda onsuz da ağır olan sosial-iqtisadi vəziyyəti böhran həddinə çatdırıb. Ölkədə yeni inqilab mehi əsməkdədir. Bu reallıqda Ermənistanın hərbi-siyasi rəhbərliyi ənənəvi olaraq dəfələrlə sınaqdan çıxardıqları taktikanı yenidən işə salmaq məcburiyyətində qalıblar. Daxili riskləri süni yaradılmış xarici risklər hesabına kompensasiya etmək, yəni - hərbi avantüraya əl atmaqla Ermənistan rəhbərliyi hakimiyyətinin ömrünü uzatmaq niyyətindədir. Sadə ermənilər diktatura rejiminin ömrünü uzatmaq naminə övladlarını müharibədə qurban vermək istəmirlər və bununla bağlı etiraz edənlərin sayı gündən-günə artmaqdadır.

***- Azərbaycanın beynəlxalq müstəvidə mövqelərinin güclənməsi də işğalçı Ermənistanı ciddi şəkildə narahat edir...***

- Bəli, Ermənistan siyasi rəhbərliyinin hərbi təxribatçı addımlarını şərtləndirən digər amil Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsi ilə əlaqədardır. Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında, Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, Münhen Təhlükəsizlik Konfransında Ermənistanın işğalçılıq siyasətini və faşist simasını ifşa etməsi, dünyanın aparıcı beynəlxalq qurumlarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qərarlar qəbul etməsi xarici ermənipərəst dairələri və Ermənistan hakimiyyətini ciddi problemlər qarşısında qoyub. Xüsusilə də, Azərbaycan Prezidentinin COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsi mənafeyinə xidmət edən BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsünün 130-dan çox dövlət tərəfindən dəstəklənməsi Ermənistanı qıcıqlandırıb. Ermənistan Azərbaycanın təşəbbüsünə etiraz etməklə özünü bütün dünyanın gözündə rüsvay edib.

Onu da qeyd edim ki, hərbi təxribatın məhz Azərbaycan-Ermənistan dövlət sərhədində baş verməsi təsadüfi deyil. Ermənistanın münaqişənin əsl mahiyyətini ört-basdır edir və bu da onun çirkin niyyətindən irəli gəlir. İşğalçı ölkə üzvü olduğu hərbi-siyasi təşkilatın "çətir"i altında gizlənərək hərbi avantürasının kollektiv müdafiə mexanizmləri ilə dəstəklənməsinə nail olmaq kimi riyakar məqsədindən qaynaqlanır. İşğalçı dövlətin bu istiqamətdə planları da tam iflasa uğrayıb.

***- Ermənistanın bu məsələdə üzv olduğu təşkilatlardan dəstək ala bilməməsini necə şərh edərdiniz?***

- Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin bu ilin altı ayının yekunlarına həsr olunmuş iclasında bir sıra vacib məsələlərə diqqət yetirdi. Bu məsələlər sırasında Ermənistanın dövlət sərhədində hərbi təxribat törətməsi və buna layiqli cavab aldıqdan sonra KTMT-yə müraciət etməsi ilə bağlı oldu. Əvvəla cənab Prezident vurğuladı ki, Ermənistanın bu hadisəyə görə ölkəmizi ittiham etməsi absurddur. Bizim sərhəddə heç bir hərbi məqsədimiz yoxdur. Bizim məqsədimiz işğal olunmuş torpaqlarımızın azad olunmasıdır. Bu nöqteyi nəzərdən Ermənistanın iddiaları tamamilə əsassızdır. Cənab Prezident bunun səbəblərinə də aydınlıq gətirdi. Birinci səbəb odur ki, erməni tərəfi həmin təşkilatın kölgəsində gizlənib, münaqişənin mahiyyətini dəyişib onlardan dəstək almaq istəyirdi. Bununla da, əslində özlərinin nə qədər qorxaq və aciz olduqlarını nümayiş etdirdilər.

Qeyd edim ki, KTMT-nin 4-cü fəslinin 12-ci madəsinə görə qərarların qəbulu konsensus prinsipi ilə qəbul edilir. Üzv ölkələrdən birinin "yox" deməsi nəticəsində heç bir qərar qəbul olunmayacaq. Dövlətimizin başçısı haqlı olaraq qeyd etdi ki, KTMT-da Ermənistandan başqa bütün üzvlərlə Azərbaycanın dostluq münasibətləri var. Bu nöqteyi nəzərdən Ermənistanın niyyətinin iflasa uğrayacağı bəlli idi. Eyni zamanda, Ermənistan özünü o baxımdan çıxılmaz duruma salır ki, bir dövlət ki, KTMT-nın öz vətəndaşı olan baş katibini həbs etsin. Sonradan təzyiq altında həbs cəzasını geri götürsə də, cinayət işi bağlanmayıb. Və 1 il çalışdı ki, bu təşkilata baş katib təyin edilməsin. Təşkilatla belə münasibəti olan bir dövlət indi onun dəstəyinə arxalanmaq istəyir. Nəticə isə bəllidir. Beləliklə, təşkilat tərəfindən heç bir dəstək göstərilmədi və bu istiqamətdə Ermənistanın cəhdləri nəticəsiz qaldı.

***- Azərbaycan cəmiyyəti bu proseslərdə ordumuza güclü dəstək nümayiş etdirir. Amma bu amildən öz məqsədləri üçün sui-istifadə edən dairələr də var. Sizcə, onların niyyəti nədən ibarətdir?***

- Azərbaycan cəmiyyəti inanır ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında yüksək hərbi-vətənpərvərlik ruhu olan güclü Azərbaycan Ordusu düşmənin təxribatına bundan sonra da layiqli cavab verəcək. Birliyimiz, həmrəyliyimiz sayəsində Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, işğaldan azad olunan torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaq.

Görünür ki, bu reallıq Ermənistan və ona havadarlıq edənləri, habelə daxilimizdəki "5-ci kolon"u möhkəm narahat edib. İyulun 14-də gecə radələrində bir qrup təxribatçının Milli Məclisə qeyri-qanuni müdaxiləsi, antidövlət şüarlar səsləndirməsi və qanunverici orqanın əmlakına zərər vurması təsadüfi hadisə olmayıb, öncədən planlaşdırılmış təxribatın nəticəsidir. Sərhəddə yaşanan son hadisələrlə bağlı orduya və dövlətə dəstəyini, düşmənə isə nifrətini ifadə etmək üçün yürüşə çıxan insanların sıralarına öncədən hazırlaşdırılmış və təlim almış təxribatçılar yerləşdirilib. Məqsəd Azərbaycanı 1990-cı illərin ssenarisi üzrə məhvə sürükləmək, ölkədə hakimiyyətsizlik mühiti formalaşdırmaq və bununla da yeni ərazi işğallarına şərait yaratmaq perspektivdə isə vətəndaş müharibəsini labüd etməkdən ibarətdir.

Amma Azərbaycan polisinin operativ reaksiyası nəticəsində təxribatçılar ərazidən kənarlaşdırıldılar. Onların kimliyi müəyyənləşdirilir. Heç kəs məsuliyyətdən kənarda qalmayacaq. Cənab Prezident Nazirlər Kabinetinin iclasında vurğuladı ki, söhbət Vətəndən, torpaqdan, ümummilli məsələlərdən gedəndə heç bri güzəştdən söhbət gedə bilməz. Bu təxribatda günahı olan hər kəs hüquqi müstəvidə layiqli cəzasını alacaq və heç bir güzəştdən söhbət gedə bilməz. Beləliklə, Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında söylədiyi fikirlər bir daha göstərdi ki, bu gün Azərbaycanda səfərbər olunmuş cəmiyyət var, həmrəylik hökm sürür, xalq-hakimiyyət birliyi monolitdir. Xalq öz Prezidentini birmənalı şəkildə dəstəkləyir və Azərbaycan Ordusu Ali Baş Koman-

## Avropa Parlamenti Ermənistanın təxribatı ilə bağlı bəyanat yayıb

**Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Marina Kalyurand bəyanat yayıb. SİA-nın məlumatına görə, M.Kalyurand bəyanatında son günlərdə Azərbaycan-Ermənistan sərhədində baş verən və Tovuz rayonunda hərbi və mülki şəxslərin həlak olması ilə nəticələnən hərbi qarşıdurmaya görə dərin narahatlıq hissi keçirdiyini bildirir və həlak olmuş şəxslərin ailələrinə dərin hüznlə başsağlığı ifadə edib.**



**Diplomat qeyd edib ki, Avropa Parlamentinin dəfələrlə qeyd etdiyi kimi, bu münaqişənin hərbi yolla həlli yoxdur və münaqişə yalnız BMT Nizamnaməsinə və ATƏT-in Helsinki Yekun Aktına uyğun şəkildə beynəlxalq hüquq normalarına əsasən həll edilməlidir. Bəyanatda ATƏT-in Minsk Qrupunun 2009-cu il Əsas Prinsipləri əsasında münaqişənin həlli istiqamətində səylərinə dəstək ifadə olunur. Avropa Parlamentinin təmsilçisi münaqişə tərəflərini hərbi əməliyyatları dərhal dayandırmağa, gərginliyin artmasına xidmət edən bütün hərəkətlərdən çəkinməyə və münaqişənin dərinləşməsinin qarşısını almaq üçün dərhal danışıqlara başlamağa çağırış edib.**

**Qeyd edək ki, 2 gün əvvəl Aİ-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri, millət vəkili Cavanşir Feyziyev Ermənistanın hərbi təxribatı ilə bağlı Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri üzrə səlahiyyətlə şəxslərinə müraciət edib. Müraciətdə Ermənistanın təcavüz aktı barəsində Avropa Parlamentinin vəzifəli şəxslərinə ətraflı məlumat verilmiş və sərhəddə baş verən hadisələr və onların doğuracağı nəticələr üçün bütün məsuliyyətin Ermənistanın siyasi hakimiyyətinin üzərinə düşdüyü bildirilmişdi.**

# Təranə Kərimova: “Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir”



***“İyulun 12-dən başlayaraq Azərbaycan-Ermənistan sərhədində vəziyyətin gərginləşməsi və Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində yaşayış məntəqələrimizi artilleriya atəşinə tutmaları bağlı dərin narahatlıqlar ifadə edilməkdədir. Ancaq Azərbaycanın güclü ordusu təxribatın qarşısını aldı, düşmən geri oturduldu və canlı qüvvəsi, texnikası məhv edildi”. Bu fikri SİA-ya açıqlamasında YAP Səbail rayon təşkilatının Qadınlar Şurasının sədri Təranə Kərimova deyib.***

T.Kərimova onu da vurğulayıb ki, Azərbaycanın çox güclü ordusu, qətiyyətli Ali Baş Komandanı, hər şeyi dəqiqliklə analiz edən hərbi-siyasi elitası var: “Ermənistanın riyakar baş naziri Nikol Paşinyan gözəl bilir ki, Ermənistan koronavirusun cəngində çabalayır və bu pandemiyanın yaratdığı çıxılmaz iqtisadi böhran vəziyyətində “kiçik müharibə”yə başlamaqla narazı kütlənin diqqətini ağır iqtisadi-sosial problemlərdən yayındırması istisna olunmur. Və Nikol Paşinyan da çox gözəl dərk edir ki, iri miqyaslı hərbi əməliyyatlar başlayacağı təqdirdə ölkəsinin güclü Azərbaycan ordusu qarşısında biabırçı məğlubiyyəti göz qabağındadır. Bu günə kimi, Azərbaycan Ordusu düşmənə layiqli cavabını verdi və verməkdədir. Şəhid hərbçilərimizin qisası alınıb”.

“Bu təxribatın baş tutmasında dicər məqam Ermənistanın Azərbaycan uğurlarına paxıllıq etməsidir. Çünki son illər Azərbaycan beynəlxalq arenada çox böyük uğurlara imza atıb. Azərbaycanın təşəbbüsü ilə beynəlxalq təşkilatların zirvə görüşləri, xüsusi sessiyanın keçirilməsi ilə bağlı təklifi 130 ölkənin dəstəkləməsi, BMT Baş Assambleyasının xüsusi sessiyası baş tutması. Ermənistanın bu təşəbbüsün əleyhinə çıxması isə bir daha dünya dövlətləri arasında rüsvay etdirməklə, bir daha özünü dünyadan təcrid etdi. Dünyanı ağuşuna alan COVID-19 -la bağlı mübarizə məsələsində öz anlaşılmaz mövqeyi ilə bütün dünyanın diqqətini öz çirkin siyasi əqidəsinə yönəltdi. Azərbaycan dövləti dünya birliyini koronavirusla mübarizədə həmrəy olmağa, birləşməyə səslədiyi bir zamanda Ermənistan bu təşəbbüsə əks mövqe sərgilədi. Bununla da, Ermənistan işğalçı olduğunu sübut etdi”.

T.Kərimova onu da vurğulayıb ki, Ermənistan dəfələrlə rüsvay duruma düşməsi, Azərbaycanın dünya miqyasında artan nüfuzu işğalçı tərəfin çirkin əməllərinin, məkrli planlarının daha da qabartdı: “İyulun 12-də baş verən proseslər də bir daha göstərdi ki, Azərbaycanın silahlı qüvvələri istənilən təxribatın qarşısını almağa qadirdir. Qısa müddətlik döyüşdə erməni hücumu nəinki dəf edildi, hətta yağı düşmənin yetərincə hərbi texnikası və canlı qüvvəsi məhv edildi. Doğrudur, ermənilər itkilərini etiraf etməsələr də, bu günə kimi baş verən proseslər onu göstərir ki, erməni qüvvələri yetərincə itki verib. Qeyri-rəsmi məlumatlara görə elə ancaq erməni ordusunun 30-dan çox əsgəri məhv edilib. Bu isə onların növbəti fiaskolarıdır. Azərbaycanın şanlı ordusu peşəkardır, möhkəmdir və yerindədir. Bizim əzəli torpaqlar onsuzda geri qaytarılacaq”.

T.Kərimova bütün bu qələbələrdən narahat olan daxilimizdəki “5-ci kolon”u möhkəm narahat etdiyini də bildirib: “İyulun 14-də gecə radələrində bir qrup təxribatçının Milli Məclisə qeyri-qanuni müdaxiləsi, antidövlət şüarlar səsləndirməsi və qanunverici orqanın əmlakına zərər vurması təsadüfi hadisə olmayıb, öncədən planlaşdırılmış təxribatın nəticəsidir. Son hadisələrlə bağlı orduya və dövlətə dəstəyini, düşmənə isə nifrətini ifadə etmək üçün yürüşə çıxan insanların sıralarına öncədən hazırlaşdırılmış və təlim almış təxribatçıların məqsədi Azərbaycanı 90-cı illərin ssenarisi üzrə məhvə sürükləmək, ölkədə hakimiyyətsizlik mühiti formalaşdırmaq və bununla da yeni ərazi işğallarına şərait yaratmaq, perspektivdə isə vətəndaş müharibəsini labüd etməkdən ibarət idi. Ancaq xarici və daxili düşmənlərimizin bu arzusu baş tutmayacaq. Azərbaycan güclü dövlətdir. Ölkəmizdə cəmiyyət və vətəndaş həmrəyliyi, xalq-hakimiyyət birliyi monolit xarakter kəsb edir. Və xalq öz Ali Baş Komandanının arxasındadır, ona tam inanır və güvənir. Düşmən dəyirmanına su tökən, öz xislətindən əl çəkməyərək ordumuzun və rəhbərimizin yanında olmaq əvəzinə təxribatçılıqla məşğul olan, ermənilərin əlinə oynayan, dövlət müstəqilliyimizin qəsdinə duran qüvvələrin tapşırığını canfəşanlıqla yerinə yetirən, vətəninə və xalqına xəyanət edənlər yaxın zamanlarda təxribatçı əməllərinə görə cəzalarını alacaqlar”.

***Rəfiqə Hüseynova***

# “Bu təxribat işğalçı Ermənistanın təcavüzkar siyasətinin növbəti təzahürüdür”

***12 iyul tarixindən mənfur düşmənlərimizin qəfildən hücuma keçməsi Ermənistanın yeritdiyi cılız siyasətin göstəricisidir. Azərbaycan və Ermənistan dövlət sərhəddinin Tovuz rayonu istiqamətində son gərginliyi onu göstərir ki, Ermənistan məqsədyönlü şəkildə bu təxribata hazırlaşmışdır.***



*Kamil Mirzəyev*
*YAP Biləsuvar rayon təşkilatının sədri*

Beynəlxalq hüquq normalrını kobud şəkildə pozan Ermənistan eyni zamanda işğalçı və təcavüzkar mövqeyini davam etdirməklə sivil dəyərlərə məhəl qoymur və pandemiya şəraitində də təxribatçı fəaliyyətini davam etdirir. Ermənistan dövlətinin terrorçu və faşist fəaliyyətə malik olması inkaredilməz həqiqətdir. 12 iyul günorta saatlarından başlanan düşmənin təxribatı nəticəsində hərbi postlarımıza artilleriya atəşi açılıb və bu çirkin əməl nəticəsində hərbiçilərimiz şəhid olub və yaralanıb. Şəhidlərimizə Allahdan rəhmət, yaralı hərbiçilərimizə isə Allahdan şəfa diləyirəm. Azərbaycan ordusunu həyata keçirdiyi əks tədbirləri düşmənin xeyli sayda canlı qüvvəsinin itki verərək və hərbi texnikalarına ciddi zərbələr yetirilməsi nəticəsində düşmən geri otuzduruldu. Azərbaycan Ordusunun düşmən təxribatına qarşı əks-tədbirləri adekvat xarakter daşıyıb, işğalçı Ermənistanın təxribatına qətiyyətli cavab verilib. Ermənistanın növbəti təxribatına qarşı Azərbaycan ordusunun cavabı həqiqətən layiqli olmuşdur. Ermənistan tərəfinin bütün təxribatçı hərəkətləri müzəffər ordumuz tərəfindən iflasa uğradılır və dövlətimiz öz sərhədlərini qoruyur.Azərbaycan Ordusu yüksək döyüş hazırlığına malikdir və qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək gücündədir. Göründüyü kimi, faktlar da təsdiqləyir ki, Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələri qarşısında cılız və zəifdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında da dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı Ermənistanın növbəti təxribatının qarşısının qətiyyətlə alındığını və adekvat cavab verildiyini bəyan etdi. Cənab Prezident dedi ki, Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər.

Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusudur. Həmçinin Silahlı Qüvvələrimiz dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Belə bir qüdrətli Ordunun qarşısında əlbəttə ki, gücsüz və taqətsiz Ermənistan Ordusu duruş gətirə bilməz. Prezident İlham Əliyev bütün çıxışlarında düşmənə xəbərdarlıq edir, atəşkəs pozulacağı, təxribatlara cəhd ediləcəyi təqdirdə Ordumuzun buna ən ağır şəkildə cavab verəcəyi barədə bəyanatlar səsləndirir. Bu gün Azərbaycan Ordusunun bütün şəxsi heyətində böyük ruh yüksəkliyi, qəhrəmanlıq əzmi, döyüş əhval-ruhiyyəsi müşahidə olunur. Ordumuz Ali Baş Komandanın istənilən əmrinə hər an hazırdır.

İşğalçı dövlətin mütəmadi olaraq atəşkəsi pozması, təmas xəttində təxribat törətməsi münaqişənin sülh yolu ilə həllində maraqlı olmadığını nümayiş etdirir. Artıq bütün dünya bilir və qəbul edir ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli, tarixi torpağıdır. Diplomatik mübarizədə qələbə qazanan Azərbaycanın sülh danışıqları səmərə vermədiyi təqdirdə hərb variantını seçərsə, qələbə qazanacağı şübhəsizdir. Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində təxribat törətmək cəhdinin qarşısının qətiyyətlə alınması da bir məqamdan xəbər verir. Azərbaycan dövləti işğalçı ölkənin təxribatlarına dözmək niyyətində deyil, düşmənə laiqli cavab vermək əzmində və gücündədir.

## Milli birliyimizi və vəhdətimizi ciddi şəkildə qorumalıyıq

İyulun 14-15-də Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilmiş aksiya cəmiyyətimizdə vətənpərvərlik ruhunun nə qədər yüksək olmasına bir daha işıq saldı. Orduya dəstək hər bir vətəndaşın borcudur, bu məqsədlə müxtəlif tədbirlərin, aksiyaların keçirilməsi təqdirəlayiqdir. Son hadisələr bir daha Azərbaycan dövlətinin gücünü, xalqla birliyini göstərdi. Böyük xalq kütləsi izdiham yaradaraq hər an dövlətinin, Ali Baş Komandanın yanında olduğunu nümayiş etdirdi. Lakin bu yürüşdən istifadə edən anti-azərbaycan qüvvələr təxribata yol verdilər. Onlar tərəfindən idarə olunan bir qrup gənc Milli Məclisin qapısını sındıraraq içəri daxil olub binaya zərər vurmağa və yürüş iştirakçılarının Ordumuza, Ölkə rəhbərliyinə dəstəyinin istiqamətini dəyişməyə cəhd etmişlər. Dağıdıcı və təxribatçı qüvvələr Milli Məclisin binasına böyük ziyan vursalar da, ən qısa müddətdə bu dağıdıcı qüvvələr asayiş keşikçiləri tərəfindən Milli Məclisin binasından çıxarılmış və adekvat tədbirlər tətbiq olunmuşdur. İndiki zamanda bu xəyanətdir, düşmənin dəyirmanına su tökməkdir. Milli Məclis dövlətimizin ali qanunverici orqanıdır. Anti-azərbaycan qüvvələrinin Milli Məclisə qarşı bu yolverilməz iyrənc addımı dövlətə, dövlətçiliyimizə, müqəddəs şəhidlərimizə və xalqımızın öz qəhrəman şəhidlərinin xatirəsinə bəslədiyi böyük ehtirama yönələn cinayətdir.

İndi bizim qüdrətli ordumuz, bizə zəfərlər gətirən Ali Baş Komandanımız var. Hər kəs əmin ola bilər ki, Azərbaycan silahlı qüvvələri operativ vəziyyətə nəzarət edir. Ermənistanın təxribatlarına sərt formada cavab verilir və veriləcəkdir. Bu gün Azərbaycan güclü orduya malikdir və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə hazırdır və buna qadirdir.

# “Qarabağ Azərbaycanındır!” ifadəsi dünyada trend olub




Qlobal pandemiya səbəbindən bütün münaqişə və müharibələrin dayandırıldığı bir dönəmdə Azərbaycanın dövlət sərhəddində işğalçı Ermənistanın xaincəsinə hərbi təxribatlar törətməsi və bununla bağlı sosial media şəbəkələrində dezinformasiyalar yayması Azərbaycan Diaspor Könüllüləri və diaspor gəncləri tərəfindən hiddətlə qarşılanıb. SİA xəbər verir ki, Azərbaycan Diaspor Könüllülərinin təşəbbüsü ilə “Karabakh is Azerbaijan!” platformasında birləşən azərbaycanlı diaspor gəncləri, xalqımızın gənclər qanadı və vətənsevər övladları birlikdə iyulun 13-dən başlayaraq sosial şəbəkələrdə, xüsusilə “twitter”də ölkəmizin dövlət sərhəddində Ermənistan tərəfindən törədilmiş təxribatla bağlı həqiqəti əks etdirən informasiyalar paylaşıblar.

Gənclər facebook və “twitter”də Dağlıq Qarabağ həqiqətləri, ermənilərin Qarabağda və ətraf ərazilərdə törətdikləri vəhşiliklər, hazırda cəbhədə baş verən təxribatlar haqqında, #KarabakhisAzerbaijan, #Karabakh, #StopArmenianAgression, #StopArmenianOccupation həştəqlərindən istifadə etməklə, facebook.com və twitter.com sosial şəbəkələrində 1000-lərlə foto, video və digər məlumatlar paylaşıblar. Azərbaycanlı gənclər sözügedən həştəqlərlə, ümumilikdə 100 minə yaxın paylaşım ediblər. Ölkəmizdə və xaricdə yaşayan gənclərimizin birlik, həmrəylik nümayiş etdirmələri nəticəsində 14-15 iyul tarixlərində twitter.com sosial şəbəkəsində qeyd edilən həştəqlər dünya trendinə düşüb ki, bu da ümummilli məsələlərdə azərbaycanlı gənclərin birliyinin bariz nümunəsidir.

Xatırladaq ki, Azərbaycan Diaspor Könüllülərinin təşəbbüsü ilə “Karabakh İs Azerbaijan!” YouTube kanalı yaradılıb. Azərbaycan Diaspor Könüllüləri, diaspor gəncləri ilə birlikdə, Qarabağ həqiqətləri - onun tarixi, mədəniyyəti, musiqisi, şəxsiyyətləri, əhalisi, adət-ənənələri, təbiəti, mətbəxi və s. haqqında Azərbaycan, ingilis, rus və digər dillərdə videoçarxlar hazırlayaraq kanal vasitəsilə yayımlayırlar. Məqsəd beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək və bu istiqamətdə həqiqətləri müxtəlif dillərdə dünyaya bir daha bəyan etməkdir.

*Bakıda ümumxalq yürüşü zamanı sosial şəbəkədə təxribatçılıq edən, "Azərbaycan dilini bilən erməni" kimi bildirilən və sonda adı və soyadının Rəşad Məmmədov olduğu üzə çıxan şəxsin barəsində mediaya yeni faktlar daxil olub. Bundan əvvəl Müsavat partiyasının üzvü olduğu bildirilən R.Məmmədovun sən demə AXCP ilə də alış-verişləri üzə çıxıb.*

# "Azərbaycan dilini bilən erməni" müsavatçı AXCP-nin də üzvü olub?

## Təxribatçı barədə yeni faktlar üzə çıxıb

Bu arada o da məlum olub ki, R.Məmmədov müsavatçı - adı mühacir biznesində hallanan Mehdi Xəlilbəylinin yaxın adamı və sürücüsü olub. Bu həmin M.Xəlilbəylidir ki, biznesi ifşa olunduqdan sonra Almaniya polisi tərəfindən həbs olunmuşdu. Əbəs deyil ki, keçmiş müsavatçılar da R.Məmmədovla bağlı ilginc detalları açıqlayıblar. Məsələn, məlum olub ki, R.Məmmədovu insanlardan pul yığmaq, saxta vəsiqə düzəltmək işlərində istifadə edən M.Xəlilbəyli əldə etdiyi gəlirdən ona da müəyyən məvacib ayırırmış.

### "Çulunu sudan quru çıxarmağa" çalışıb...

Nəticədə ifşa olunduqlarını görən R.Məmmədov mühacir biznesi ilə bağlı alman prokurorluğunun apardığı istintaq tədbirlərinə könüllü ifadə verməklə, necə deyərlər, "çulunu sudan quru çıxarmağa" çalışıb. "Almaniya prokurorluğu araşdırma aparır, polislə əməkdaşlığa getdi ki, guya bu işlə əlaqəsi yoxdur. Amma Rəşad Məmmədovun mühacir alverində iştirakçı olduğunu burada hər kəs bilir. Onun oturum izni yoxdur. Onun belə video çağırışlar etməkdə məqsədi məhz buradan qaynaqlanır. Belə müraciət etdi ki, media orqanlarında hamı bundan yazsın, telekanallar məlumatlar yaysınlar. O da həmin məlumatları yığıb Almaniyanın Miqrasiya İdarəsinə göndərsin ki, baxın məni deportasiya etmək istəyirsiniz, getsəm təzyiqlərlə üzləşəcəm. Bu adamın əslində məqsədi budur. Oturum almaq üçün hoqqalar çıxarır. Gərək onunla bağlı məlumatlar tirajlanmayaydı. İndi deyəcək ki, Azərbaycanda ölümlə hədələnirəm, məni göndərsəniz, həbs olunacam", deyə xaricdə yaşayan müsavatçılar bildiriblər.



Daha bir məqam isə, adıçəkilən təxribatçının Azərbaycandan bu partiyanın vasitəsilə Almaniyaya getdiyi və orada Müsavat Avropa Koordinasiya Mərkəzinə (AKM) üzv yazılması iddiasıdır ki, buna da şübhə yoxdur.

### "Mehdinin yanında şoferlik edib, sonra dalaşıb ayrılıblar"

Ancaq daha bir nüans onun AXCP-də də görünməsidir. Müsavat AKM-in sədri İlham Həsənin mətbuata verdiyi açıqlamasına görə, R.Məmmədov bəzi müsavatçılardan və digər müxalifət üzvlərindən şikayət edib. "Onu Almaniyaya göndərən, maliyyələşdirən və müxalifəti şantaj etdirən bir klandır. O, tək deyil, bir qrupun üzvüdür. Onun adamları şərləməkdən başqa fəaliyyəti yoxdur", deyən müsavatçı bildirib ki, əlaqədə olduqları da Surətin, Ələkrəmin adamlarıdır.

"Amma Mehdi Xəlilbəylinin kəndçisi olduğunu deyirlər və Mehdinin yanında şoferlik edib, sonra dalaşıb ayrılıblar", bildirən İ.Həsənli R.Məmmədovun AXCP-də də fəaliyyət göstərdiyini deyib.

### Yeganə Hacıyeva: "Partiyada ən zəif amma ən qaragüruh bir zümrə rəhbərliyə gəldi"

Vaxtilə Müsavatda başqan müşaviri olan politoloq Yeganə Hacıyevanın da fikirləri ilgincdir. "2014-cü ildən sonra partiya daxilində həmişə ancaq məhdud fərdi maraqlara xidmət edən, intellektual səviyyəsi çox zəif olan, partiya fəaliyyəti və siyasi prosesləri ancaq öz qrup maraqları çərçivəsində dəyərləndirən, partiyada ən zəif amma ən qaragüruh bir zümrə rəhbərliyə gəldi", xatırladan Y.Hacıyeva əlavə edib ki, belə bir qaragüruh qrupun partiyanı daxili qruplaşma üçün bir alət edəcəyi aydın idi və bu belə də oldu: "Bu şəxsin Almaniyada Müsavata açılan bilet qalmaqalı ilə bağlı cinayətdə şahidlik etdiyi deyilir. Görünən odur ki, Müsavata bağlılığı var. Bunun özü biabırçılıq deyilmi?".

Y.Hacıyeva hesab edir ki, artıq Müsavat partiyası rəhbərliyi bu məsələyə aydınlıq gətirmək üçün geniş açıqlama verməlidir, aidiyyəti qurumlar isə bu şəxsin təxribatçı fəaliyyətinə görə məsuliyyət daşımasını təmin etməlidirlər.

***Rövşən RƏSULOV***

# Ermənistan KTMT-dən kömək istədiyini danır

Ermənistan-Azərbaycan sərhədində vəziyyətlə əlaqədar rəsmi Yerevan guya ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) kömək istəməyib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, cümə günü Ermənistan Xarici İşlər Nazirinin müavini Şavarş Koçaryan Minskdə keçirilən Hökumətlərarası Şuranın iclası çərçivəsində Ermənistanın sərhəddəki vəziyyətlə əlaqədar KTMT-dən kömək istədiyini danıb. "KTMT nizamnaməsində, təşkilatın üzvü olan bir dövlətə hücum edildikdə, bu ölkənin kömək istəməyə haqqı



olduğu müddəası var. Biz sadəcə vəziyyət haqqında tərəfdaşlarımıza məlumat verdik", deyə Şavarş Koçaryan ölkəsinin kömək istədiyini danıb.

Xatırladaq ki, Ermənistan KTMT üzvüdür və bu təşkilata üz olmaqda da məqsədi elə təşkilatın nizamnaməsində qeyd olunduğu kimi, təşkilatın üzvü olan bir dövlətə hücum edildikdə, bu ölkənin kömək istəmək hüququnu təsdiqləyən müddəanın olmasıdır. Bir sözlə, Ermənistan KTMT-yə elə kömək gözləmək, kömək istəmək məqsədi ilə üzv olub və bu həmin ölkənin növbəti hiyləgərliyinin təsdiqidir. Bu işğalçı ölkənin son təxribatlarından sonra, Ermənistan Xarici İşlər Nazirinin müavini Şavarş Koçaryanın da etiraf etdiyi kimi, dərhal KTMT-yə məlumat verməsi də elə bu kömək istəmənin, kömək gözləmənin isbatıdır və bu da təsdiq edir ki, bu ölkə ənənəsinə uyğun olaraq öz əməllərini növbəti dəfə də danır.

# Hərarəti olan abituriyentlər imtahana buraxılacaqmı?



Yüksək hərarəti olan şəxsləri imtahana buraxmamaqla onun və ətrafındakıların sağlamlığını qorumuş oluruq. Ancaq çalışırıq ki, həkimlərin razılığı olan şəxslər də imtahanda iştirak edə bilsinlər. SİA-nın məlumatına görə, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. M.Abbaszadə bildirib ki, ümumilikdə yoluxucu xəstəliyi olan adamın evdən çıxmağa ixtiyarı yoxdur: "Biz istərdik ki, hamı imtahanda iştirak etsin. Abituriyentin səhhəti imkan verirsə, biz onun imtahan verməsinə şərait yaradırıq, ancaq imtahan zamanı digər abituriyentlərin də sağlamlığını qorumalıyıq". DİM sədri əlavə edib ki, əvvəlki imtahanlarda yoluxucu xəstəlikləri aşkar edilməyən şəxslərin bir qismi sonradan dəvət olunaraq imtahanda iştirak etdilər, ancaq bunu hər zaman təşkil etmək mümkün olmur.

# "Antimilli ünsürlər sosial şəbəkələr vasitəsilə yalan məlumatlar yayırlar"

***"Prezident İlham Əliyev nəinki Azərbaycanın, ümumilikdə Cənubi Qafqazın ən informasiyalı şəxsidir. Təbii ki, baş verən hadisələr, onların mahiyyəti, kimlər tərəfindən planlaşdırılması barədə dəqiq məlumatlara malikdir. Bununla yanaşı, Prezidentin çıxışı həm də yaxın tarixdə müşahidə edilən təcrübəyə əsaslanır". Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib.***

Onun sözlərinə görə, Azərbaycanda yaxın tarixdə yaxşı və ya pis mənada baş verən bütün hadisələr zamanı "5-ci kolon" nümayəndələrinin aktivləşməsinin, hadisələrdən yararlanmaq istəmələrinin hamımız şahidi olmuşuq: "2016-cı ilin aprel döyüşləri zamanı "5-ci kolon" üzvlərinin necə mövqe sərgilədiklərini, düşmənə necə informasiya dəstəyi verdiklərini hər kəs xatırlayır. Bu azmış kimi, hətta xalqımız üçün müqəddəs günlərdə 20 Yanvar Şəhidlərinin xatirələrinin anılması mərasimi zamanı həmçinin, Xocalı faciəsi qurbanlarının xatirəsinin anılması mərasimi zamanı "5-ci kolon" üzvlərinin və radikal düşərgə təmsilçilərinin hansı oyunları çıxardıqlarını yaxşı xatırlayırıq. Onlar ümumxalq məsələsi olan bu cür anlarda da iğtişaşlar törətməyə, xalqda çaşqınlıq yaratmağa, öz məkrli planlarını həyata keçirməyə çalışırlar. Bu ənənəyə əsaslanıb düşünmək olurdu ki, "5-ci kolon" karantin dövründəki çətinliklərdən, həmçinin, Tovuzda baş verən hadisələrdən də yararlanmağa, əhalidə çaşqınlıq yaratmağa çalışacaqlar. Bu gözləntilər özünü tezliklə doğrultdu. Onlar iyulun 14-15-də vətəndaşlarımızın ən ülvi, müqəddəs, vətənpərvərlik duyğularının



təsiri altında atmış olduqları addımları, aksiyanı kontekstdən çıxarmağa, yanlış istiqamətə yönləndirməyə çalışdılar".

M.Ələsgərli onu da bildirib ki, Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilmiş aksiya cəmiyyətimizdə vətənpərvərlik ruhunun yüksək olduğunu nümayiş etdirmək üçün keçirilirdi, alqışlanmalıdır: "Aksiya iştirakçılarının səfərbərlik elan olunmasını istəmələri qürurvericidir. Amma "5-ci kolon" nümayəndələri, fürsətçilər aksiyanı kontekstdən çıxarıb Milli Məclisi dağıtmağa, dövlət əleyhinə çevirməyə çalışdılar. Onlar hər yerdədirlər, həmişə ayıqdırlar və hər saniyə hücuma keçə bilirlər. 14 iyul aksiyasından da yararlandırlar. Şəraitdən sui-istifadə edərək gecə saatlarında Milli Məclis binasına soxulmaqla insanlarda ötən əsrin 90-cı illərin xaos təəssüratını yaratmaq istədilər. Məhz 90-cı illər abhavası ilə yanaşmalarından bəlli olur ki, 14 iyul aksiyasını kontekstdən çıxarmaq istəyənlər həmin 90-cı illər iqtidarı nümayəndələri, bu günkü radikal düşərgə təmsilçiləridirlər. Bu antimilli ünsürlər sosial şəbəkələr vasitəsilə cəbhə xəttində, həm də paytaxtda arzuolunmaz proseslərin baş verməsi barədə yalan məlumatlar yayırlar. Bu cür əməlləri ilə həm də düşmənə xidmət edirlər. Deməli, elə "5-ci kolon" nümayəndələridirlər".

***Gülyana***

*1991-ci lini oktyabrın 28-də ermənilər Xocavənd, noyabrın 16-da Hadrut rayonunu, neçə-neçə kəndləri işğal etdilər. Həmin ilin ortalarında öz qoşunlarını Dağlıq Qarabağdan çıxaran Rusiya əslində öz silah-sursatını erməni hərbi dəstələrinə verdi. "Təkcə 81-ci operativ alayın 10 ədəd zirehli texnikası, 1000 ədəddən artıq atıcı silahı ermənilərin ixtiyarına verilmişdi". Dağlıq Qarabağdakı işğalçılıq əməliyyatlarına birbaşa Ermənistanın Müdafiə Nazirliyi başçılıq edirdi.*

Nazirlik Dağlıq Qarabağda bütün hərbi qüvvələrin və terrorçuların da daxil olduğu "Ermənistan ekspedisiya korpusu" yaratmışdı. Ermənistana havadarları hərtərəfli yardım edirdilər. İ.Hüseynli "Dağlıq Qarabağ: tarix olduğu kimi" məqaləsində yazır:

"Dağlıq Qarabağ.
Ərazisi - 4388 km2
Əhalisi - 189085
Şuşa. Ərazisi - 289 km2, Əhalisi (1989) - 20579 Azərbaycanlılar - 19036 (92,5%) Ermənilər - 1377 (6,7%) İşğal tarixi - 1992, 8 may
Ətraf rayonlar. İşğal tarixi. Əhalisi:
Laçın 1992, 18 may - 66646
Kəlbəcər 1993, 2 aprel - 61947
Ağdam 1993, 23 iyul - 145359
Füzuli 1993, 23 avqust - 106543
Cəbrayıl 1993, 23 avqust - 62519
Qubadlı 1993, 31 avqust - 31619
Zəngilan 1993, 29 oktyabr - 36335
Təcavüzün qurbanları: Həlak olanlar - 20000 Əlil olanlar - 50000 İtkin düşənlər - 4866 Dağıntılar və ziyanlar Yaşayış məntəqələri - 900 Evlər - 130939 İctimai binalar - 7000 Məktəblər - 1025 Uşaq bağçaları - 855 Səhiyyə ocaqları - 798 Kitabxanalar - 927 Məscidlər - 62 Tarixi abidələr, muzeylər və yerlər - 900 Muzey eksponatları - 60000 Sənaye və kənd təsərrüfatı obyektləri - 2389 Avtomobil yolları - 5198 km Körpülər - 348 Su xətləri - 7568 km Qaz xətləri - 2000 km Elektrik xətləri - 76940 km Meşələr - 280000 ha Məhsuldar torpaqlar - 1000000 ha İrriqasiya sistemləri - 1200 km.[24, s.6]

Diqqətə çatdırılır ki, Ermənistanın hakim dairələri bu gün öz bəyanatlarında status-kvonun saxlanması arzusunu əslində gizlətmir və müvafiq olaraq gələcək hərbi toqquşmalara təhrik edirlər. Hərçənd, ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin prezidentləri dəfələrlə bəyan ediblər ki, mövcud status-kvo qəbuledilməzdir. S.Sarkisyan və onun komandası substantiv (əhəmiyyətli) danışıqlara getməyə hazır deyillər, çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli onları Ermənistanın siyasi səhnəsindən birdəfəlik silib atacaqdır. Heç kəs tərəfindən tanınmamış "Dağlıq Qarabağ respublikası"nın adının bu yaxınlarda dəyişdirilərək "Arsax" adlandırılması təşəbbüsü danışıqlar prosesini pozmaq və substantiv danışıqlardan geri çəkilmək cəhdindən başqa bir şey deyil. Ermənistan rəhbərliyində Dağlıq Qarabağ probleminin həllinin hərtərəfli düşünülmüş, ölçülüb-biçilmiş, çoxvariantlı metodikası var. Bu metodikaya ermənilərin işğal edilmiş ərazilərdən çıxıb getməsi və Qarabağın hərbsizləşdirilməsi də daxildir. Hələ uzaq 1997-ci ildə Ermənistan prezidenti Levon Ter-Petrosyan münaqişənin bu cür mərhələli həlli ilə razılaşmışdı. Lakin qeyd etmək lazımdır ki, elə həmin Ter-Petrosyan "Qarabağ" komitəsinin əsasını qoymuş, onun uzun illər boyu rəhbərlik etdiyi hərəkatın proqramında Dağlıq Qarabağın Azərbaycandan qoparılması və onun Ermənistana birləşdirilməsi barədə xüsusi bənd var. "Qarabağ kartı" ilə oynamaq kimi riyakar metodlar Ermənistanın sonrakı prezidentləri Koçaryan və Sarkisyan üçün də səciyyəvi idi. Serj Sarkisyanın yaxın vaxtlarda verdiyi bir bəyanatdan məlum olur ki, o, Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Lakin hesab edir ki, Dağlıq Qarabağ problemi həll edilərkən xalqların təyini-müqəddərat hüququ da nəzərə alınmalıdır.

Dağlıq Qarabağ lokal münaqişəsində hərb tariximizə Dördgünlük müharibə və ya Aprel döyüşləri kimi qəhrəmanlıq və zəfər vuruşu kimi şöhrət qazanan bu fenomenal hadisənin öz yeri və rolu vardır. Şövqi Bünyatöv bu münasibətlə yazır:" Aprel döyüşləri və ya Dördgünlük müharibə Azərbaycanın ən yeni tarixində şərəfli səhifələrdən yalnız biridir. Rəsmi məlumatlara görə, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş bu hərbi münaqişə əslində Ermənistan işğalçılarının növbəti atəşkəsi pozmalarına verilən cavab olmuşdu . Yəni Azərbaycan ordusu bütün Beynəlxalq sülh prunisplərinə sadiq qalsa da, qarşı tərəfin mənfur niyyəti, arxadan vurmaq xisləti, xainliyi özünü növbəti dəfə göstərəndə, ordumuz sadəcə onlara yerlərini göstərmişdi. Dördgünlük müharibə zamanı, Azərbaycan Silahlə Qüvvələrinin birləşmələri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini azad edib, Füzuli rayonu istiqamətində yerləşən "Lələtəpə" adlandırılan yüksəkliyə nəzarəti ələ keçirtmişdir. Döyüşlər nəticəsində, Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların da nəzarətdə saxlanılmasını təmin etmişdir.

Hərbi əməliyyatlar zamanı Azərbaycan Silahlı Qüvvələrinin 88 hərbi qulluqçusu həlak olmuş,1Mi-24 helikopteri vurulmuş və bir tank mina partlayışı zamanı sıradan çıxmışdı. Döyüşlərdə ermənilərə məxsus 30 tank, 15-dək artileriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv etmiş, 320 döyüşçüsü öldürülmüş və 500-dən artıq döyüşçüsü yaralanmışdır. Əhəmiyyətli bir haldır ki, rəsmi məlumatlardan belə məlum olur ki, müharibə amanı Azərbaycan 3 silahlı birləşmə ilə üzüzə durmuşdur. Ermənistan, Dağlıq Qarabağ separatçıları və PKK üzvləri". Müəllif aprel döyüşlərinin başlanma səbəblərini, mahiyyətini, hərbi, mülki-psixoloji əhəmiyyətini ətraflı, hərtərəfli şərh edir.

Aprel döyüşlərində Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirdi, nəticədə Ermənistan silahlı qüvvələri 320-yə yaxın hərbçi, çoxsaylı texnika itirmiş, həmçinin 2000 hektara yaxın ərazi, o cümlədən Lələtəpə və Talış yüksəklikləri geri qaytarılmış, Silahlı Qüvvələrimiz on minlərlə əraziyə nəzarət etmək imkanı qazanmışlar. "Aprel döyüşlərində mənfur düşmən Azərbaycan Silahlı Qüvvələrinin gücünü bir daha gördü. Bütün dünya şahid oldu ki, Azərbaycan Ordusu bu döyüşlərdə necə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərdi. Aprel döyüşləri öz ordusu haqqında yalanlar, miflər uyduran Ermənistanın təbliğatına ciddi zərbə vurdu, erməni cəmiyyətini sarsıtdı. Ermənistan rəhbərliyi aprel döyüşləri zamanı özlərini tam şəkildə ifşa etdi. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata görə, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan Silahlı Qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Azərbaycan tərəfindən bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edildi. Döyüş nəticəsində Goranboy rayonunun və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan məntəqəsi erməni qüvvələrindən tam təmizləndi. Horadiz şəhərinin erməni təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələtəpə" adlandırılan yüksəklik də Azərbaycan Ordusunun nəzarətinə keçdi. Qısa müddətdə həyata keçirilən sürətli əks-həmlə zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarılıb, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələri ermənilərdən tam azad olundu. Aprelin 3-dən başlayaraq Azərbaycan Silahlı Qüvvələri cəbhə xəttində birtərəfli qaydada düşmənə qarşı əkshəmlə əməliyyatını və cavab tədbirlərini dayandırdığını elan etdi. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aprelin 19-da yayımladığı məlumata əsasən cəbhə bölgəsində Azərbaycan Ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "X-55" tipli pilotsuz uçuş aparatı Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən məhv edildi.

Növbəti gün aprelin 20-də yayımlanmış məlumatlarda isə qeyd edilib ki, yenə Azərbaycan Ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter tipli "DJİ PHAMTON" pilotsuz uçuş aparatı Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən xüsusi üsulla endirilərək ələ keçirilib. Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, hər an torpaqları azad etmək iqtidarında olduğunu, habelə Azərbaycan əsgərinin vətənpərvər və qəhrəman obrazını nümayiş etdirdi. Aprel döyüşləri Azərbaycan xalqının həmrəyliyini, birliyini, hakimiyyətlə xalq arasında vəhdəti nümayiş etdirdi. Aprel döyüşləri həm də Ermənistan cəmiyyətində gərginliyi artırdı, xalqla hakimiyyət arasında uçurumu daha da dərinləşdirdi".

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2016-cı il noyabrın 12-də Füzuli rayonu ərazisində ön xəttə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olarkən hərbi qulluqçular qarşısında çıxışında Azərbaycan əsgərinin, xalqının qəhrəmanlığını belə xarakterizə edir: "Azərbaycan Ordusu aprel döyüşlərində peşəkarlıq, qəhrəmanlıq, məharət göstərib. Mən Hərbi Hospitalda yaralı əsgər və zabitlərimizlə görüş zamanı onlarda ruh yüksəkliyi gördüm. Onların bir arzusu var idi - tezliklə sağalmaq və döyüş bölgələrinə qayıtmaq. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük və vətənpərvər xalqdır. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu, guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur".

***Vahid Ömərov f.ü.f.d. dos***

# Ermənistanın işğalçılıq siyasəti

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

18 iyul

## İranda koronavirusdan bir gündə 183 nəfər ölüb



Ötən həftə ilə müqayisədə İranda koronavirusa yoluxaraq ölənlərin sayı nisbətən azalıb. Bu barədə məlumatı İranın Səhiyyə Nazirliyinin mətbuat katibi Səadət Sima Lari verib. O bildirib ki, son sutka ərzində İranda 2 min 379 nəfər virusa yoluxub, 183 nəfər isə vəfat edib. Bununla da İranda koronavirusa yoluxanların ümumi sayı 269 min 449 nəfərə, ölənlərin sayı isə 13 min 791-ə çatıb. Xüsusi xəstəxanalarda müalicə alan 232 min 873 nəfər sağalaraq evə buraxılıb. İntensiv terapiya şöbələrində müalicəsini davam etdirən 3 min 509 nəfərin vəziyyəti isə ağır olaraq qalır. Mətbuat katibi onu da nəzərə çatdırıb ki, İranda tibbi maskadan istifadə məcburi olduğu üçün maska istehsalı gündəlik 6 milyona çatdırılıb.

## "Real" 34-cü dəfə İspaniya çempionu oldu!



***Futbol üzrə İspaniya La Liqasında 2019/2020 mövsümünün qalibi müəyyənləşib. Belə ki, Madridin "Real" futbol klubu La Liqanın 37-ci turunda doğma meydanda "Vilyarreal"a 2:1 hesabı ilə qalib gəlib və xalını 86-ya yüksəldib. Bununla da, Zinədin Zidanın komandası turnirin bitməsinə 1 tur qalmış çempionluğu rəsmiləşdirib.***

**"Real" - "Vilyarreal" - 2:1**

Qollar: Benzema, 29 (1:0), 77-pen (2:0), İborra, 83 (2:1)

Beləliklə, "Kral klubu" tarixində 34-cü dəfə ölkə çempionu olub. Qeyd edək ki, 37-ci turda "Osasuna"ya 1:2 hesabı ilə uduzan "Barselona" 79 xalla 2-ci, "Atletiko" 69 xalla 3-cüdür.

## Abşeronda ağır qəza: 2 nəfər öldü, 5 yaralı var



Abşeron rayonunun Qobu qəsəbəsi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, iyulun 16-da saat 23 radələrində Abşeron rayonunun Qobu qəsəbəsi ərazisində Hökməli qəsəbə sakini K.İbadovun idarə etdiyi "VAZ-21099" və Bakı şəhər sakini Elxan Sadıqovun idarə etdiyi "VAZ-21074" markalı avtomobillər toqquşub. Nəticədə E.Sadıqov və K.İbadovun sərnişini - anası Şahzadə hadisə yerində ölmüş, E.Sadıqovun 4 sərnişini, habelə digər sürücü xəstəxanaya yerləşdiriliblər. Abşeron RPİ tərəfindən araşdırma aparılır.

## Yumurta qabığı orqanizmdə asan həzm edilən kalsium mənbəyidir

***Yumurta qabığı orqanizm tərəfindən asanlıqla həzm edilən zəngin kalsium mənbəyidir. Maddələr mübadiləsinin ən geniş yayılmış problemlərindən biri əsasən sümükləri kövrəldən kalsium çatışmazlığıdır.***

AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, adi toyuq yumurtası qabığında olan kalsium orqanizmdə ən müasir preparatlarda olandan daha asan mənimsənilir.

Yumurtanın tərkibində 27 faydalı element var. Bir ədəd yumurta qabığından təxminən 1 çay qaşığı toz əldə etmək mümkündür. Həmin tozun yeməyə qarışdırılıb qəbul edilməsi çox faydalıdır. Yumurta qabığı dəriyə sığallı görkəm verir və şəffaflıq bəxş edir, dırnaq və saçları möhkəmləndirir, diş əti qanamalarını azaldır, yuxusuzluğun qarşısını alır.



Yumurta qabığı əziləndən sonra yumurta ilə qarışdırılaraq üzə çəkilir, quruyandan sonra ılıq su ilə yuyulur. Çaydan ərp bağlayarkən və qazanın dibini yağ tutarkən təmizlik vasitəsi kimi də ondan istifadə etmək olar.

Yumurta qabıqları bir parça torbaya qoyulur və ağ paltarlar yuyularkən onun paltaryuyan maşına atılması ağ paltarları bəmbəyaz edir. Hətta dibçək bitkilərinin dibinə tökdükdə onları qurumağa qoymur. Yumurta tozu gübrə kimi bitkilərin dibinə töküləndə ziyanvericiləri məhv edir. Ancaq onu da nəzərə almaq lazımdır ki, kalsiumun çox qəbul edilməsi əzələ tutulmasına səbəb olur, təzyiqi qaldırır, ürək döyüntülərini artırır. Zülalla zəngin yumurta qabığının çoxlu faydası olduğu kimi zərərli xüsusiyyətləri də var.

## Sumqayıtda soyğunçuluq edən keçmiş məhkum tutulub



Soyğunçuluqda şübhəli bilinən Sumqayıt sakini Ş.Dadaşov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Sumqayıt ŞPİ 4-cü PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 15-də şəhər sakini Q.Nərimanova zor tətbiq edib soyğunçuluq yolu ilə velosipedini almaqda şübhəli bilinən Sumqayıt sakini, əvvəllər məhkum olunmuş Ş.Dadaşov saxlanılıb.

## Gəncədə və Ağsuda oğurluqla məşğul olanlar tutulublar



Gəncədə və Ağsuda oğurluqla məşğul olan şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 15-də Gəncə şəhərinin Nizami rayonu ərazisindəki evlərin birindən 6150 manat dəyərində məişət əşyaları oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş S.Talıbov rayon polis idarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Davam etdirilən tədbirlərlə onun daha bir evdən 12 min manat dəyərində qızıl-zinət əşyaları oğurlaması da müəyyənləşdirilib.

İyulun 12-də Ağsu rayonu ərazisindəki mağazaların birindən 1655 manat məbləğində pul oğurlamaqda şübhəli bilinən Şamaxı rayon sakini, əvvəllər məhkum olunmuş R.Soltanov isə Ağsu Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıb. Hər iki faktla bağlı təhqiqat aparılır.

## Dietoloq: Çipslər zərərli deyil, amma...



Dietoloq İvan Alimenkonun fikrincə, çipslərin zərərli qida olması yanlış məlumatdır. Sputnik Azərbaycan xarici mətbuata istinadla xəbər verir ki, mütəxəssisin sözlərinə görə, çipslərdən normal miqdarda istifadə etməyin orqanizm üçün heç bir təhlükəsi yoxdur.

Ekspert həmçinin qeyd edib ki, piylənmə və aterosklerozdan əziyyət çəkən şəxslər tərkibində duz çox olan çipslərdən imtina etməlidirlər. Dietoloqun sözlərinə görə, çipslərin əsas problemi onların tərkibi deyil, miqdarındadır: "Əgər insanlar bu məhsuldan az miqdarda yeməyi öyrənsələr çipslərin zərərləri haqqında söhbətlər də bitəcək. İnsanlar ucuz olduğu üçün böyük paketdə olan çipslər alır. Sonra isə bunun hamısını yeyirlər. Mən kiçik paketlərin tərəfdarıyam".

## ELAN

**Bakı şəhəri, Abşeron rayonu Masazır qəsəbəsində yerləşən Bağçalı Evlər MTK tərəfindən Behbudov Ramiz Behbud oğlunun adına verilmiş 52\36 saylı order itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**